www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 oktyabr 2016-cı il Çərşənbə axşamı № 218 (6539) Qiyməti 60 qəpik

## Xəbər

### Bakıda sevgilisinə sürpriz hazırlayan kişi binadan yıxılıb öldü

yazısı səh.2-də

## Gündəm

### "Xocalı qatili" Ermənistan ordusunun başından getdi




Sərkisyan "Qarabağ klanı"nın əsas fiqurlarından birini ermənistanlı kadrla əvəzlədi, separatçı rejimin "müdafiə naziri"ni isə Baş Qərargah rəisi təyin etdi; Nalbəndyan yenidən XİN rəhbəri təyin olundu

yazısı səh.11-də

### Vitse-prezident təyinatları nə vaxt olacaq?

yazısı səh.9-da

### Bu il Aşura mərasimləri fərqli keçiriləcək

yazısı səh.13-də

### REAL və NİDA gözləntiləri niyə doğrulda bilmədi...

yazısı səh.3-də

### "Bank Standard"ın qarşısında əmanətçi etirazı

yazısı səh.13-də

### Yeni gömrük rüsumları əhalidə çaşqınlıq yaradıb: bolluq, yoxsa bahalaşma?

yazısı səh.12-də

### Referendumdan sonra müxalifət partiyaları nə edir?

yazısı səh.3-də

### Hakimiyyət Milli Şuranı müxalifət hesab edir, Müsavatı yox?

yazısı səh.4-də

### Facebook səhifəsi, WatsAppı olmayan siyasətçilər...

yazısı səh.4-də

### Rus politoloqdan ilginc Qarabağ çağırışı

yazısı səh.9-da

### Ərzaq təhlükəsizliyinə hansı orqan cavabdehdir?

yazısı səh.15-də

### Həmid Herisçi "Yeni Müsavat"a yazacaq

yazısı səh.3-də

## Tehranın ağırlaşan Qarabağ dilemması - ya 5 rayon, ya da...

# RUHANİ BAKIDAN İRƏVANA HANSI MESAJLARI APARIR - KRİTİK GÖZLƏNTİ

Öz qonşuluğunda daha bir qanlı savaşın qızışmasında maraqlı olmayan İranın lideri işğalçı ölkənin başçısını konstruktivliyə inandıra biləcəkmi?; Rəsmi Tehranın vasitəçilik imkanları məhdud olsa da, Ermənistana real təsir rıçaqları...




yazısı səh.8-də

## Cahangir Hacıyevin məhkəməsində ilginc faktlar açıqlandı

Həbsdə olan bankirin arvadını Azərbaycana gətirmək üçün Britaniyaya əməliyyat qrupu göndərilibmiş; **vəkil:** "Kreditlərin ayrıldığı daxili layihələrə Dünyamin Xəlilov rəhbərlik edib"; maliyyə naziri yenə də ittiham olundu

yazısı səh.5-də



*Pənah Hüseyn:*

**"Ən yaxın dövrdə müxalifətin ciddi bir şəkildə fəallaşması, reytinqinin artması gözlənilir"**

yazısı səh.9-da



*Əli Əliyev:*

**"Demokratiya pərdəsi altında sırınan xaos və təlatümlərdən qorunmaq gərəkdir"**

yazısı səh.4-də



*Əli Həsənov:*

**"Müsəlman ölkələrinin vahid internet resurslarının yaradılmasına ciddi ehtiyac var"**

yazısı səh.6-da



## Prokurorlara "NAZ-Lifan" verilib

**Prezident İlham Əliyevin tövsiyəsindən sonra dövlət qulluqçularının xidməti avtomobil kimi Naxçıvan Avtomobil Zavodu (NAZ) tərəfindən istehsal olunan "NAZ-lifan"dan istifadəsi artmaqdadır.**

Gununsesi.info-nun xəbərinə görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sonra Baş Prokurorluq da bu avtomobillərdən sifariş edib. Artıq prokuorluğun bir neçə idarə və şöbələrinin rəisləri üçün xidməti "NAZ-lifan" alınıb.

Prokurorluq işçilərinin peşə bayramı zamanı bir çox prokuror Fəxri Xiyabana məhz yeni NAZ-larla gəliblər.

Xatırladaq ki, Naxçıvan Avtomobil Zavodu hazırda 8 çeşiddə minik avtomobili istehsal edir.

İstehsal olunan modellər "NAZ-Lifan 720", "NAZ-Lifan 820" (Premium modellər), "NAZ-Lifan 620", "NAZ-Lifan 630" (sedan modellər), "NAZ-Lifan X50" və X60 (SUV), "NAZ-Lifan 320" və "NAZ-Lifan 330" (Mini) modelləridir.

"NAZ-Lifan 720" modelinin qiyməti 14 min manatdan, 820 modelinin qiyməti 22 min manatdan, X60 modelinin qiyməti də 14 min manatdan başlayır.

## Rusiya rəsmisindən 15 iyul çevriliş cəhdi ilə bağlı sensasion açıqlama

**Rusiya hökumətinin xarici siyasət üzrə müşaviri və prezident Vladimir Putinin xüsusi nümayəndəsi Aleksandr Dugin Türkiyədəki çevriliş cəhdi ilə bağlı sensasion açıqlama verib.**

Avropa.info xəbər verir ki, Dugin Türkiyə ordusu tərəfindən vurulan SU-24 təyyarəsinin Ərdoğanın əmri ilə vurulmadığını hələ 2015-ci ilin dekabr ayında bildiklərini açıqlayıb.

14 iyulda Ankarada olan və həmin gün bir çox adama ordu daxilində hərəkətlilik olduğunu söyləyən Dugin 15 iyul günü saat 18-də Melih Gökçek ilə üz-üzə görüşdüyünü, çevriliş cəhdinin baş tutduğu dəqiqələrdə isə təyyarədə gözlədiyini söyləyib.

Türkiyənin Rusiyada səfərdə olan bir qrup dövlət rəsmisi Moskvada Rusiya hökumətinin xarici siyasət müşaviri və Rusiya prezidentinin xüsusi nümayəndəsi Aleksandr Dugin ilə görüşüblər.

Təyyarə böhranının bir təxribat olduğu Duginin Türkiyə səfəri zamanı sənədlərlə ona təqdim olunub. O da öz növbəsində bu məlumatı Rusiya hökumətinə çatdırıb.

Rusiyada səfərdə olan türk heyəti Avrasiya Yerli İdarələri Təşkilatının sədri Həsən Çingiz Duginin Türkiyə səfəri zamanı bunları dediyini xatırladıb:

"Sizin ordunun daxilində bir hərəkətlilik var. Türkiyənin artıq bir qərar qəbul etməsi lazımdır. Türkiyə bir seçim etmək məcburiyyətindədir".

Təyyarə böhranından dərhal sonra 2015-ci ilin dekabr ayından etibarən Türkiyədən hərbi heyətin Rusiyaya gəldiyini vurğulayan Dugin ilk olaraq bunu onlardan duyduğunu, ancaq əllərində məsələ ilə bağlı dəlil olmadığını bildirib.

## Bakıda 52 yaşlı kişi intihar edib

**Bakıda intihar hadisəsi baş verib. Yasamal rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə bu gün rayonun Landau küçəsi 536, ev 6, mənzil 22 ünvanında qeydə alınıb. Həmin ünvanda yaşayan, 1964-cü il təvəllüdlü Arif Rasim oğlu Quliyev yaşadığı evdə özünü asıb. İntiharın səbəbləri hələlik məlum deyil.**

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Əlahiddə Ümumqoşun Ordusunda komanda-qərargah təlimləri keçirilir

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən oktyabrın 3-dən Naxçıvan Muxtar Respublikası ərazisində komanda-qərargah təlimləri başlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, təlimlərə Əlahiddə Ümumqoşun Ordusunun tabeliyində olan hərbi hissələr, idarə heyətləri və qərargahlar cəlb olunub.

Əldə edilmiş təcrübəyə əsaslanaraq təlimlərdə iştirak edən hərbi hissə və birləşmələr əməliyyatların əsas növlərinin keçirilməsi ilə Naxçıvan ərazisinin müdafiəsi, ümumilikdə ərazimizə qarşı düşmənin təhdidləri və təcavüzkar fəallığının qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi üzrə tapşırıqlar yerinə yetirəcək.



Eyni zamanda bölmələr silahlanmalarında olan yeni və müasir raket-artilleriya sistemləri, aviasiya vasitələri, digər silah və döyüş texnikasının tətbiqi ilə qarşı tərəfin müdafiəsinin dərinliyindəki hərbi-strateji obyektlərin məhv edilməsi tapşırıqlarını da icra edəcəklər.



## Bakıda avtomobillə vəzifəli şəxsi vurub qaçan sürücü tutuldu

**Keçən həftə avtomobil tərəfindən vurulan piyadanın vəzifəli şəxs olduğu məlum olub. "Report"un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, avtomobillə vurularaq xəstəxanaya yerləşdirilən Bakı şəhər sakini Feliks Bayramov Kənd Təsərrüfatı Nazirliyi Təchizat Bazasının direktoru vəzifəsində çalışır.**

Xatırladaq ki, hadisə sentyabrın 29-da saat 20 radələrində baş verib. Belə ki, Binəqədi rayonu ərazisində müəyyən edilməmiş avtomobillə yolu keçən F.Bayramov vurulub və o, xəstəxanaya yerləşdirilib. Binəqədi Rayon Polis İdarəsinin (RPİ) 7-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən "KİA" markalı avtomobilin sürücüsü - paytaxt sakini Emin Günəşli tutulub.

Faktla bağlı Binəqədi RPİ-də Cinayət Məcəlləsinin 263-cü (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) və 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri üzrə cinayət işi başlanıb, araşdırma aparılır.



## Şamaxıda şagirdini zorlayan müəllimə iş kəsildi - 5 il 6 ay həbs

**Şamaxı rayonu Pirbəhli kəndində qeydə alınan biabırçı olayda - şagirdinin hamilə qalmasında adı hallanan müəllim Elnur İbrahimov 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.**

Bu haqda onun atası Həsənağa İbrahimov məlumat verib. O, ailəsinin pərən-pərən düşdüyünü qeyd edərək, medianı bu məsələni şişirtməkdə qınayıb. Həsənağa İbrahimov deyib ki, hadisə barədə mətbuat bu qədər yazmasaydı, işlər bu səviyyəyə çatmazdı:

"Hamınız istəyinizə çatdınız, oğlum tutuldu. 5 il 6 aylıq həbs edildi. İstəyirsiniz, gəlin məni də tutdurun".

Xatırladaq ki, Pirbəhli kəndinin Ağsaqqallar Şurasının sədri hacı Neman Əfəndiyev hadisələrdən sonra qalmaqalda adları hallanan müəllim və şagirdin ailə qurmağa hazırlaşdığını açıqlamışdı.

**H.İbrahimov bu faktı təsdiqləyib:** "Bəli, ailələr razılığa gəlmişdi, barışmışdıq. Amma hüquq-mühafizə orqanları, hökumət barışığa heç bir məhəl qoymadı. Heç barışıq sözünü hallandırmadılar da".

**Baba dünyaya gələn nəvəsindən xəbərsiz olduğunu bildirib:** "Uşaqdan xəbərimiz yoxdur, görməmişik. Hər şeyi hökumət bilir, biz bilmirik".

**H.İbrahimov həmçinin oğlunun həyat yoldaşının 2 uşaqla birlikdə atası evinə getdiyini açıqlayıb:** "Gəlin uşaqlarla birlikdə atası evinə getdi. Hərəsi bir dərədədir. Ailəmiz dağıldı daha".

Qeyd edək ki, Şamaxı rayonunun Pirbəhli kəndində yetkinlik yaşına çatmayan məktəbli qızın müəllimi tərəfindən zorla cinsi əlaqəyə məcbur edilməsi və hamilə qalması günlərlə müzakirə olundu. Ailələr bir-birilərinə qarşılıqlı ittihamlar irəli sürdülər. Müəllim E.İbrahimovun atası hadisədən sonra oğlunun həmin qıza əl belə vurmadığını demişdi. Araşdırmalar zamanı bəlli oldu ki, Şamaxı rayon məhkəmə tibb eksperti Məmməd Abdulrahibov 7 aylıq hamilə olan qıza bakirəlik haqda rəy verib. Hadisə ilə bağlı Şamaxı Rayon Prokurorluğunda cinayət işi açılmışdı.

Hadisədə adı hallanan müəllim 25 yaşlı Elnur İbrahimov ailəlidir, 2 övladı var.

Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının doğum şöbəsinin müdiri Zəhra Abbasovanın açıqlamasına görə, 2016-cı ilin iyul ayında qız uşağı dünyaya gətirən gənc ana, uşağın atasının həbsdə olmasını əsas gətirərək ondan imtina edib. Uşaq hazırda 1 saylı körpələr evindədir. *(Modern.az )*

## Dollar cüzi ucuzlaşdı

**Azərbaycan Mərkəzi Bankı (AMB) oktyabrın 4-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi bu günlə müqayisədə 0,2% azalaraq 1,6138 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dolların məzənnəsi 1,6170 manat olub.**

## İslam Kərimovun qızı dəlixanaya salınıb

**Özbəkistan prtezidenti İslam Kərimovun vəfatından sonra onun qızı Gülnarə Kərimova psixiatriya xəstəxanasına yatırılıb. Bu xəbəri bu gün öz mənbələrinə istinadla Türkiyənin NTV telekanalı yayımlayıb.**

Telekanalın bildirdiyinə görə, Gülnarə Kərimova faktiki olaraq Özbəkistandakı hakimiyyət uğrunda mübarizədən kənarlaşdırılıb. Mənbənin məlumatına əsasən, Gülnarə Kərimova dəlixanaya Özbəkistan prezidentinin vəzifələrini icra edən Şövkət Mirzəyevin göstərişi ilə salınıb.

Virtualaz.org xəbər verir ki, işin təfərrüatları barədə əlavə məlumat verilmir. Əlavə edilir ki, Gülnarə Kərimovanın oğlu İslam Kərimov (mərhum prezidentin nəvəsi) anası ilə əlaqə yarada bilmir.

Qeyd edək ki, Gülnarə Kərimova bu yaxınlara qədər Özbəkistanda ən nüfuzlu siyasi fiqurlardan idi. Ard-arda bir neçə beynəlxalq maliyyə qalmaqalından sonra təxminən 5 il öncə onun işləri pis getməyə başlamışdı.

## "Baku Steel Company"də alov fəhlələrin üzərinə püskürüb - 4 nəfər yaralanıb

**Bakı şəhəri, Nərimanov rayonu, Z.Bunyadov prospektində yerləşən "Baku Steel Company" Zavodunda istehsalat qəzası baş verib.**

"Report"un xəbərinə görə, alov püskürməsi nəticəsində orada çalışan 4 nəfər yanıq xəsarətləri alıb.

Həmin şəxslər 1961-ci il təvəllüdlü İmran Qasımov, 1964-cü il təvəllüdlü Şahin Əliyev, 1973-cü il təvəllüdlü Kamil Məmmədov və 1987-ci il təvəllüdlü Rəşad Veyisovdur.

Həmin şəxslər 5 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdiriliblər.

## Bakıda sevgilisinə sürpriz hazırlayan kişi binadan yıxılıb öldü

**Bakıda 34 yaşlı Ənvər Şirinovun ölümü ilə nəticələnən hadisənin bəzi detalları məlum olub.**

Sputnik.az xəbər verir ki, özünü Heydər Əliyev prospekti 99 ünvanındakı binadan atan Ə.Şirinov əslində orada yaşamırmış.

Məlum olub ki, Ə.Şirinovun yaxın münasibətdə olduğu qadın həmin binada yaşayır. Həmin qadın ilkin ifadəsində bildirib ki, 1 aya yaxındır, Ənvəri görməyib və axırıncı dəfə evdə münaqişə etdikdən sonra o, gedib.

Ehtimal edilir ki, srağagün gecə saatlarında Ə.Şirinov tanışına sürpriz etmək və ya başqa məqsədlə binanın pilləkəninin pəncərəsindən mənzilin eyvanına keçmək istəyib və bu zaman yıxılaraq ölüb. Yuxarıda qeyd edilən ehtimal və digər suallar istiqamətində araşdırmalar davam etdirilir. Faktla bağlı Nərimanov rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə iş başlanılıb.

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016

# Referendumdan sonra müxalifət partiyaları nə edir?

## Qurultaya hazırlaşanlar da var, toplantılar keçirənlər də...

**Uzun zamandır ölkədə siyasi partiyaların aktiv fəaliyyəti müşahidə olunmur. Bu, sosial şəbəkələrdə və mediada tənqid edilsə də, vəziyyət dəyişmir.**

*Bəs, referendum sonrası siyasi partiyaların fəaliyyətləri nədən ibarətdir?*

**KXCP sədrinin müavini Xəzər Teyyublu** "Yeni Müsavat"a bildirdi ki, referendumla bağlı boykot qərarından sonra ənənəvi olaraq hər həftə KXCP-in İdarə Heyətinin iclasları keçirilir: "Rayon şöbələrinin tədbirləri, müşavirələri keçirilir. Təşkilatlanma istiqamətində bu və ya digər formada siyasi fəaliyyətlər göstərilir. Ümumilikdə ölkədə baş verən ictimai-siyasi həyata partiyanın rəhbərliyi səviyyəsində mövqelər də bildirilir. Bu istiqamətdə fəaliyyətimiz davam etdirilir".

**ADP sədrinin müavini Həsrət Rüstəmov** isə söylədi ki, cari fəaliyyətlə məşğuldurlar: "Bildiyiniz kimi, referendumla bağlı partiyanın bəyanatı oldu. Vətəndaş və İnkişaf Partiyası ilə birlikdə ölkədəki ictimai-siyasi vəziyyət də bir daha dəyərləndirildi. Yaz aylarında partiyanın qurultayını keçirməyi planlaşdırırıq. Partiyadaxili qarşıya qoyulan məqsədlərdən biri budur. Ölkədə ümumiyyətlə, müxalif siyasi partiyaların fəaliyyəti üçün çox da geniş zəmin yoxdur. Digər partiyalar kimi bizim də partiyamızda maliyyə çətinliyi var. Partiya üzvləri ilə əlaqə saxlamaq, regionlarda konfranslar keçirmək kimi fəaliyyətləri bir qədər arxa plana keçirmişik. Ancaq buna baxmayaraq, partiyanın mərkəzi strukturları fəaliyyətdədir. Mümkün qədər yerli təşkilatlarla da əlaqə yaratmağa çalışırıq. Onlar da öz fəaliyyətlərini davam etdirməyə cəhd göstərirlər".

Yeni qurulan **Ağ Partiyanın lideri Tural Abbaslı** isə bildirdi ki, qurultaydan sonra sənədləşmə işləri ilə məşğuldurlar: "Ədliyyə Nazirliyinə Reyestr Xidmətinə qəbul olunmaq üçün məktub göndərmişik. Sənədləşmə işləri artıq sonuncu mərhələdədir. Ümid edirik ki, on gün ərzində qurultayın nəticələri təsdiqlənəcək. Bununla yanaşı təşkilatlanma istiqamətində də işlər görürük. Partiyanın qurultaydan əvvəlki strukturlarının üzvlərindən demək olar ki, heç kim qalmayıb. Yəni partiya sıfırdan qurulur. İstər regionlarda, istərsə də Bakıda yeni üzvlərin qəbul olunması istiqamətində çalışırıq. Gündəlik siyasi proseslərə də münasibət bildirib, bu və ya digər formada müzakirələrdə iştirak edirik. Həmçinin digər partiyalarla, siyasi şəxslərlə yeni bir partiya kimi ünsiyyət qurmağa çalışırıq. Əsas fəaliyyətimiz bu istiqamətdədir. Demək olar ki, bütün müxalif partiyalarla münasibətlərimiz yaxşıdır. Bir çox partiyalarla dostluq münasibətlərimiz var və müxtəlif məsələlərdə əməkdaşlıqlarımız olub".

Vətəndaş Həmrəyliyi Partiyası isə qurultaya hazırlaşır. Bu barədə "Yeni Müsavat"a məlumat verən **partiyanın Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli** bildirib ki, hazırda konfranslar keçirirlər: "Nəzərdə tuturuq ki, ilin sonuna qədər bütün işlərimiz baş tutarsa, qurultayımızı keçirəcəyik. Təbii ki, rayonların bir çoxunda konfrans keçirmək problemdir. Yer ayrılmır, verilmir. Məhz bu da konfransların keçirilməsi üçün mane olan əsas səbəblərdən biridir. Bütün bunlara baxmayaraq konfranslar davam edir. Bu ilin sonuna qədər yekunlaşdıra bilməsək də, qarşıdakı ilin may ayına qədər qurultayı keçirməyi nəzərdə tuturuq".

**BAXCP sədrinin siyasi məsələlər üzrə müavini Niyaməddin Orduxanlı**nın sözlərinə görə, onların partiyası da intensiv fəaliyyətlərini davam etdirirlər: "Həftədə bir dəfə BAXCP idarə heyətinin ənənəvi toplantısı keçirilir. Orada ölkənin ictimai-siyasi məsələləri müzakirə olunur. Bu gün də faktiki olaraq iclas keçirildi və müzakirələr aparıldı. Bizim 60-a yaxın rayon şöbələrimiz var ki, onlarla da əlaqələrimiz mövcuddur. Sırf siyasi qanunvericilikdə nəzərdə tutulan siyasi partiyanın fəaliyyət istiqaməti üzrə ardıcıl işlər aparırıq. Bəlli olduğu kimi liderimiz Qüdrət Həsənquliyev həm də deputatdır. Millət vəkillərinin də sessiyası başlayır. Onun da partiyada və Milli Məclisdə ümumi fəaliyyət istiqamətləri müəyyən olunur və müzakirə edilir. Partiyanın aparat üzvləri olaraq gündəlik işə çıxaraq, ardıcıl fəaliyyətimizə davam edirik".

❑ Əli RAİS

# REAL və NİDA gözləntiləri niyə doğrulda bilmədi...

**NİDA və REAL hərəkatları fəaliyyətə başlayanda cəmiyyətin müxtəlif kəsimlərinin onlardan gözləntiləri yüksək idi. Yarandıqları ilk illərdə bu qurumların ölkənin demokratik düşərgəsində canlanma yaradacaqları deyilirdi. Amma bir müddətdən sonra bu təşkilatlar da digər müxalif qurumlar kimi passiv dövrlərinə qədəm qoydular...**



Rəsul Cəfərov: "Müəyyən dövrlərdə geriləmə ola bilər"



Turqut Qəmbər: "Mümkün olan bütün variantlardan istifadə edəcəyik"

Doğrudur, ölkədə NİDA və REAL-a qarşı olan təzyiqlər də onların fəaliyyətlərinə ciddi əngəllər yaratdı. Xüsusilə, 2013-cü ilin əvvəllərində REAL sədri İlqar Məmmədovun və NİDA rəhbərlərinin həbsi burada mühüm rol oynadı. Sonradan NİDA rəhbərləri böyük qismi azad olunsa da, bu da hərəkatın fəaliyyətinə ciddi təsir etmədi. REAL sədri isə hələ də məhbəsdədir.

Referendumla bağlı da hər iki təşkilatın aktiv olmaması da ciddi müzakirələrə səbəb oldu.

**Amma REAL-ın idarə heyətinin üzvü Rəsul Cəfərov** hərəkatın passivləşməsi ilə bağlı deyilən fikirlərlə razılaşmır: "Heç bir fəaliyyəti həyata keçirməkdən imtina etməmişik. Ölkənin siyasi mühitində nələr baş verirsə, REAL da öz proqramına, mövqeyinə uyğun şəkildə bu proseslərdə iştirak edir. İlqar Məmmədov hələ azadlıqda olandan REAL-ın əsas məqsədi hakimiyyətə gəlib, ölkənin idarəetməsini formal olaraq dəyişdirməkdən ibarətdir. Bunun nə qədər çəkəcəyini, gec və ya tez olacağını heç zaman düşünməmişik. Həmişə işimiz fəaliyyətimizi ardıcıl olaraq davam etdirməkdən ibarət olub. REAL hərəkat olaraq 2009-cu ildə yaranıb. 7 il siyasi təşkilat üçün - özü də Azərbaycan kimi ölkələrdə uzun zaman hesab edilmir. Bu 7 ilin yarısından çoxunu da hərəkatın sədri həbsdə keçirib. Sual oluna bilər ki, niyə həbsdədir. REAL-ın və İlqar Məmmədovun aktivliyi buna əsas oldu. Burada söhbət təkcə İlqar Məmmədovun həbsindən getmir, Natiq Cəfərli də həbs olunmuşdu, sonradan azad olunsa da, nəinki ölkədən, Bakıdan çıxışına qadağa var. Cinayət işi də hələ bağlanmayıb. Hər an bundan ona qarşı istifadə edə bilərlər. Bir müddət bundan əvvəl REAL-ın fəaliyyətində əsas fiqurlardan biri olan Azər Qasımlının ölkədən çıxışına qadağa qoyuldu. Adətən kimlərin ölkədən çıxışlarına qadağa qoyulduğunu biz yaxşı bilirik. İdarə heyətinin üzvü kimi mən də həbsdə olmuşam. Düzdür, fəaliyyətim daha çox hüquq sahəsi ilə bağlı idi. Həbsimə səbəbin də bu olduğunu düşünürəm. Yəni bunları ona görə deyirəm ki, bu müddət ərzində REAL fəaliyyətsiz qalmayıb. Hərəkatımız yarandığı ilk illərdən qarşısına qoyduğu məqsədlərdən bir dəqiqə də yayınmayıb. Bu istiqamətdə fəaliyyətimizi də dayandırmamışıq. Hansısa bir proses uzun çəkə bilər, müəyyən dövrlərdə geriləmə ola bilər, bunlar təbiidir. Ölkədəki siyasi mühitin hansı vəziyyətdə olduğu məlumdur. Repressiyalar, təzyiqlər hələ də davam edir. Heç bir plan, mövqe dəyişikliyi şəxsən mənim üçün yoxdur, düşünürəm ki, REAL üçün də yoxdur".

**NİDA Vətəndaş Hərəkatının idarə heyətinin üzvü Turqut Qəmbər** fəaliyyətləri ilə bağlı bunları dedi: "Müxalifətin fəaliyyətində səngimələrin olması ilə bağlı tez-tez yazılar gedir. O fikirlərlə razı deyiləm. Nəzərə almaq lazımdır ki, Azərbaycanda repressiv durum var. Bu durumun nəticəsində tez-tez fəallar polisə aparılır, həbslər olur, insanlar təqib olunur, işdən qovulur, universitetlərdə incidilir. Bu problemlərə rəğmən, NİDA, REAL və digər müxalif qurumlar ayaqda qalmağı bacarırlar, böyüyə bilirlər, yeni üzvlər cəlb edirlər. NİDA daim fəaliyyətini göstərib, bundan sonra da belə olacaq. Keçən ildə olduğu kimi, bu il də debatlar, açıq tədbirlər, leksiyalar təşkil etdik. Bu fəaliyyətimiz davam edəcək. Azərbaycanda mümkün olan nə qədər variantlar varsa, istifadə edəcəyik".

❑ Cavanşir ABBASLI




# Həmid Herisçi "Yeni Müsavat"a yazacaq

## Tanınmış yazar yeni layihələri ilə "Yeni Müsavat" Media Qrupuna gəlir

**Tanınmış yazar, jurnalist Həmid Herisçi "Yeni Müsavat" Media Qrupuna transfer olundu. Bu barədə yazar musavat.com-a açıqlamasında bildirib. "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu ilə iş fəaliyyəti və layihələrlə bağlı anlaşan yazar oktyabrın 4-dən etibarən redaksiyada işə başlayacaq. Bu günə qədər bir-birindən fərqli layihələrlə oxucularını və seyrçilərini təəccübləndirən H.Herisçi eyni xətti "Yeni Müsavat"da davam etdirəcək.**

Müsahibimiz dedi ki, əsasən portret yazıları, araşdırmalar, müsahibələr, eləcə də kriminal xarakterli serial yazılarla çıxış edəcək. H.Herisçi mediadan müvəqqəti müddətdə uzaq qaldığı ərəfədə oxucuların da ona tez-tez yazıları ilə bağlı müraciət etdiyini xatırladtı: "Bundan sonra fasiləsiz olaraq yazılarımı "Yeni Müsavat" qəzeti, musavat.com və minval.az saytlarında oxuya biləcəklər. Çalışacam ki, oxucuların zövqünə və maraq dairəsinə uyğun olan yazılarla çıxış edim".

❑ SEVİNC,
musavat.com

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016



# "Klinton prezident seçiləcəyi təqdirdə demokratiya paradı davam edəcək"

## Əli Əliyev: "Demokratiya pərdəsi altında bəzən sırınan xaos və təlatümlərdən qorunmaq gərəkdir"

**2004-cü ildə beynəlxalq güclərin, əsasən də Qərbin dəstəyi ilə Gürcüstandan başlanan məxməri inqilablar, demokratiya dalğası adlanan proses az sonra Ukraynada narıncı inqilabla davam etdi. 2011-ci ilin əvvəllərindən proses Tunisə, Liviyaya, Misirə keçdi. "Ərəb baharı" adı verilən dalğa özü ilə ciddi qarşıdurmalar da gətirdi. Nəhayət proses gəlib Suriyada "demokratiya çığırı"ndan çıxdı və illərdir dünyanın bir nömrəli probleminə çevrilmiş Suriya müharibəsinə yol açdı. Beləliklə demokratiya dalğası Suriyada qırıldı və geri çəkilmə başladı. Bir sıra politoloqlar hesab edir ki, demokratik proseslər, inqilabi proses dalğadır. Bu dalğanın qabarması mərhələsi bir müddət yaşanır və yenidən sakitləşir. Bir müddət sonra yenidən dalğa baş qaldırır. Hər dəfə də müxtəlif ölkələrdə izini buraxır. Bu baxımdan hesab etmək olar ki, demokratiya dalğası artıq dayanma, geri çəkilmə mərhələsini yaşayır.**

Bu barədə danışan **VİP sədri Əli Əliyev** qeyd etdi ki, siyasət dinamik prosesdir. Fəaliyyətdə qabarma və çəkilmələr olur, lakin hərəkətsizlik olmur. Dünyanın demokratiya dalğası durmayıb, ola bilər sakit fazaya keçib: "Demokratiyanın tərəfdarları kimi, əleyhdarları da fəaliyyətdədir. Mənə görə son illərdə demokratiyanın ən böyük qələbəsi Ukraynada baş tutub. Bu günlərdə ukraynalılar üçün Şengen fəzasına vizasız hərəkətin açılacağı barədə siyasi qərar qəbul olundu. Qərar Ukrayna coğrafiyasının Avropa Birliyi siyasi məkanına qatılım anlamındadır. Demokratiyanın əks qüvvələri dalğanın inkişaf etməməsi üçün əllərindən gələni edirlər. Elə nümunə kimi gətirdiyim Ukraynada son 2 ildə baş verənlərə baxsaq, kifayət edər. Krımın ilhaqı, Dnestryanı separatçı rejimlər Ukraynanın müstəqil dövlətə çevrilməsi üçün real əngəldir ki, Kreml hər vəchlə bunu dəstəkləyir. Qarabağ müharibəsinin səbəbi nədir? Gürcüstan , Moldova torpaqlarında yaradılmış süni qurumlar haradan yemlənir? Elə Suriyada minlərlə insanın qətliamı, dövlətin tar-mar edilməsində iştirak edən demokratiya düşmənləri deyilmi? Dünyanın mədəni hissəsi ilə inkişaf etməmiş hissəsi, xeyirlə şər arasında savaş hər zaman olub, olacaq da".

**Ə.Əliyevin fikrincə, burada bir məsələni ayırmaq mütləq lazımdır. Demokratiya pərdəsi altında bəzən sırınan xaos və təlatümlərdən qorunmaq gərəkdir:** "Demokratiyanın carçısı olan Qərb bəzən millətlərə siyasi mikstura təklif edir. Ağıllıları onun içərisindən demokratiyanı, əbləhləri müharibəni, qarışıqlığı və fəlakəti seçirlər. Çünki Qərbin də başbilənləri yekcins deyil. Onların da sıralarında qarışıqlıqdan mənfəət axtaranları var. İnqilablar yenə olacaq. Durğunluq ABŞ-dakı seçkilərlə əlaqəlidir. Hillari Klintonun prezident seçiləcəyi təqdirdə, demokratiya paradı davam edəcək. Diqqət yetirin, Rusiya KİV-ləri xanım Klintona qarşı necə təbliğat aparırlar. Sanki Tramp Kremldə oturacaq kimi təqdim edilir. Avtoritar siyasi çevrələrin öz davranış və idrak tərzləri var. Onlar siyasi obyektivlikdən çəkinir, siyasi şəffaflığa qarşı fobiyaları vardır. Bu isə artıq diaqnozdur. Demokratiya Azərbaycana da gələcək. Mütləq gələcək! İqtidarlı-müxalifətli çalışmalıyıq ki, bu azadlıq formatı özü ilə rifah və ədalət gətirsin. Təəssüf ki, xaos və fəlakət perspektivimiz də kifayət qədər yüksəkdir. İstərdim bizdə baş verəcək dəyişiklik inqilab deyil, təkamül adlansın, inqilab baş tutsa belə, məxməri, şüurlarda baş verən transformasiya olsun".

❑ **Etibar SEYİDAĞA**

# Facebook səhifəsi, Watsappı olmayan siyasətçilər...

**Müasir dünyanı sosial şəbəkələrsiz, e-mailsiz təsəvvür etmək mümkün deyil. Amma Azərbaycanda kifayət qədər siyasətçi var ki, onlar hələ də Watsapp, facebook və digər bu kimi sosial mediadan istifadə etmir. Siyasətlə məşğul olan insanların bu cür imkanlardan yararlanmaması qəribə görünür. Maraqlıdır, onların sosial şəbəkədən imtina etmələrinin səbəbi nədir?**



**Siyavuş Novruzov:** "Sosial şəbəkələrin hamısı idarə olunandır"



**Pənah Hüseyn:** "Sosial şəbəkələrdən istifadə etməməyimin özəl səbəbləri var"



**Sərdar Cəlaloğlu:** "Watsapp" nə olan şeydir, indi eşidirəm"



**Mirmahmud Mirəlioğlu:** "Onlarsız da dünyanın işi keçir"

Mövzu ilə əlaqədar sosial şəbəkələrdən yararlanmayan bir neçə siyasətçiyə müraciət etdik.

**YAP-ın icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov** daha çox canlı ünsiyyətə üstünlük verdiyini açıqladı:

"Çünki cavabdehlik daşıyırsan, amma sosial şəbəkələrə yox. Dəfələrlə olub ki, mənim adımdan sosial şəbəkələrdə yazılar çap ediblər, guya bu yazılar mənim facebook səhifəmdən gəlib. Sonra aydın olub ki, bunu edənlər siyasi sığınacaq adı altında ölkədən xaricə gedən, milliyyəti bəlli olmayan insanlardır. O cümlədən müxalifətdə olan bəzi jurnalistlər var ki, onlar belə şeylər edir. İstənilən an istənilən vətəndaşın səhifəsinə girmək, orada nəsə yerləşdirmək mümkündür. Sonradan sübut etmək istəsən ki, bunu mən yaratmamışam, ona da uzun müddət lazım olur.

WikiLeaks-ın dünyada nələri ortaya çıxardıb qoyduğunu gördük. Ən təhlükəsiz, ən qorunan bir sosial media idi və nəticə etibarı ilə nə oldu... Ona görə də mən hesab edirəm ki, sosial şəbəkələrin hamısı idarə olunandır və ondan istifadə etməyə üstünlük vermirəm".

**AXP sədri Pənah Hüseyn** sosial şəbəkələrdən istifadə etməməyinin özəl səbəbləri olduğunu dedi:

"Mənim sosial şəbəkələrdən istifadə etməməyim ona mənfi münasibətim kimi dəyərləndirilməməlidir. İndiki əsrdə sosial psixoloji ovqat elədir ki, hətta bütün vətəndaşlar kütləvi şəkildə bundan istifadə edir, bunun qarşısını almaq mümkün deyil. Fikrimcə, sosial şəbəkələrin təhlükəsizlik baxımından etibarlı olmaması ilə bağlı qorxu, filan da azalıb. Mənim özümə gəldikdə isə sosial şəbəkədən istifadə etməməyimin özəl səbəbləri var. İndiki vəziyyətdə, müstəqil elektron KİV-lər, qəzet və televiziyalar bağlanmaqdadır. Prinsipcə, ola bilər ki, mən də bunu nəzərə alaraq sosial şəbəkələrə qoşulum".

**ADP sədri Sərdar Cəlaloğlu** isə daha çox elmi işlə məşğul olduğu üçün sosial şəbəkələrə vaxt ayırmaq imkanı olmadığını bildirdi: "Mən daha çox elmi işlə məşğulam. Oturub internetdə boş-boş şeylər üçün saatlarla mübahisə etmək həvəsim və vaxtım yoxdur. Gündə partiyanın qərargahına gəlib 8 saat kitab üzərində işləyib gedirəm. Hətta şənbə və bazar günləri də gəlib işlə məşğul oluram. Sosial şəbəkə qədər vaxtı alan ikinci bir şey yoxdur. Bu, bir xəstəlik səviyyəsində olur, alışdınsa burdan çıxa bilmirsən. Ona görə də vaxtımın azlığı və mənim marağımda olan adamları sosial şəbəkədə tapa bilmək ümidim olmadığından sosial mediadan istifadə etmirəm.

Watsappım da yoxdur, bilmirəm o nə olan şeydir, onu da indi eşidirəm".

**KXCP sədri Mirmahmud Mirəlioğlu** isə sosial şəbəkəsiz də dünyanın işinin keçdiyini qeyd etdi: "Başlanğıcda bu, hər kəsin xoşuna gələn və yararlı olan məsələdir. Azərbaycanda sosial şəbəkə bütövlükdə söyüş söymək, təhqir etmək, olmayanları demək üçün bir tribunaya çevrilib. Hər kəsin mövqeyi, ortadadır, münasibətini, rəyini çatdırmaq imkanları da var. Amma sanki Azərbaycanda saxtakarlıq üçün yeni bir tribuna yaranıb, saxta profillərdən tutmuş digər məsələlərə qədər. Bütün bunlar qanqaraçılıqdan başqa bir şey deyil. Azərbaycan türkçəsinin nə qədər söyüşə sərf olunduğunu görürsən. Bəzən elə şeylər rastına çıxır ki, adam tər tökür, xəcalət çəkir ki, sən demə, mənim dilimdə bu cür sözləri də ifadə edən adamlar varmış. Onsuz da sosial şəbəkəsiz də dünyanın işi keçir".

Mövzu ilə əlaqədar bir informasiyanı da xatırladaq ki, Rusiyada məmurların və dövlət qulluğunda çalışanların iş kompüteri ilə sosial şəbəkələrdən istifadə edilməsinin qadağan olunacağı bildirilir. Buna səbəb arqumentlərdən biri bu idi ki, sosial şəbəkələrin böyük hissəsi və xüsusi proqramlar xarici kampaniyalar tərəfindən hazırlandığından, böyük ehtimalla sonradan, informasiya müharibəsi zamanı proqramlı şəkildə ölkəyə qarşı istifadə edilə bilər.

❑ **Xalidə GƏRAY**

# Hakimiyyət Milli Şuranı müxalifət hesab edir, Müsavatı yox?

## İqtidarın bu iki müxalif təşkilata fərqli münasibəti suallar yaradır

**Hakimiyyətin Müsavat Partiyası ilə Milli Şuraya münasibətdə bir sıra məqamlar diqqət çəkir. Belə ki, Milli Şura iqtidar tərəfindən daha çox tənqid edilir. Amma Müsavat bu münasibətdən kənarda qalır.**

Xüsusilə, referendum öncəsi bu hallar daha çox müşahidə olundu. Milli Şura 11-17 sentyabr tarixlərində keçirdiyi aksiyalardan sonra iqtidar mediasında ciddi şəkildə müzakirə edildi. Bu aksiyaları xarici donorlara, kəşfiyyatlara, bir sıra ölkələrə bağladılar. İddia olundu ki, Milli Şuranın təşkil etdiyi mitinqlər Azərbaycan dövlətçiliyinə qarşı xarici qüvvələrin sifariş verdiyi aksiyalardı. Bunun fonunda Müsavatın 18 sentyabr mitinqi barədə hökumət mətbuatı, tv-ləri demək olar ki, heç nə yazmadılar. Bu da istər-istəməz bəzi suallar yaradır.

Bununla bağlı müxtəlif iddialar var. İddialardan biri ondan ibarətdir ki, Milli Şuranın mitinqinə Müsavata nisbətən daha çox etirazçı qatıldı və ona görə hədəfə gəldi. Digər bir fikir də ölkə iqtidarının uzun illər yeritdiyi siyasətlə bağlıdır. İddia olunur ki, hakimiyyət bu yolla cəmiyyət arasında Müsavata qarşı münasibətdə ikitirəlik yaratmağa istəyir. Yəni bu yolla Müsavatın iqtidara yaxın olması fikrini ictimaiyyətə aşılamaq istəyir.

Üçüncü fikrin nümayəndələri isə iddia edir ki, Milli Şura müxalifət təşkilatı olaraq iqtidara daha çox narahatlıq yaradır, Müsavat Partiyasının bu günkü durumu isə bu cür təhlükələri istisna edir.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman**



**Mehman Əliyev:** "Bu, daha çox Əli Kərimli amili ilə bağlıdı"

**Əliyev** hakimiyyətin Milli Şuraya qarşı münasibətinin şəxsi məsələlərdən qaynaqlandığını düşünür: "Açığı, belə suallara cavab vermək çətindir. Amma düşünürəm ki, iqtidarın Milli Şuraya qarşı münasibəti şəxsi məsələdən doğur. Əli Kərimliyə münasibət, onun ölkədən çıxışına imkan verilməməsi, yaxınlarına təzyiqləri misal çəkə bilərik. Xətt belə tutulduğuna görə, şəxsi məsələ olduğunu düşünürəm. Burada siyasi gücün əsas rol oynadığı qənaətində deyiləm. Çünki bu ərəfədə hər iki qurumda fəallıq var idi. Bu baxımdan hesab edirəm ki, Əli Kərimli amili hakimiyyət üçün daha çox qıcıq oyadır. Deməzdim ki, hakimiyyət bir tərəfin guya onlara yaxın olduğunu göstərmək üçün digər tərəfə daha çox hücum edir. Çünki hakimiyyət o qədər də güclü şahmat oyunçusu deyil. Ölkədə yaranan mövcud vəziyyət bunu deyir. Hakimiyyət ən çox gücün və maliyyənin hesabına hələ ki ayaqdadır. Əgər güclü hökumət olsaydı, belə vəziyyətlə üzləşməzdi".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016

**"Beynəlxalq Bank işi"nə görə həbs edilənlərin cinayət işi üzrə məhkəmə prosesi oktyabrın 3-də davam etdirilib. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin vəkilləri müdafiə çıxışı edib.**




# Cahangir Hacıyevin məhkəməsində ilginc faktlar açıqlandı

## Həbsdə olan bankirin arvadını Azərbaycana gətirmək üçün Britaniyaya əməliyyat qrupu göndərilibmiş; **vəkil:** "Kreditlərin ayrıldığı daxili layihələrə Dünyamin Xəlilov rəhbərlik edib"; maliyyə naziri yenə də ittiham olundu

Prosesin əvvəlində zərərçəkmiş kimi tanınan "Aqrarkredit" QSC-nin nümayəndəsi çıxış edərək qeyd edib ki, QSC-yə 7 milyon 600 min manat zərər dəyib. O, həmin məbləğin təqsirləndirilən şəxslərdən alınaraq QSC-yə ödənilməsini istəyib.

Qeyd edək ki, Cahangir Hacıyevin həbsindən sonra Beynəlxalq Bankda problemli kreditlərlə bağlı problemlərin həll edilməsi "Aqrarkredit" QSC-yə həvalə edilib.

Məhkəmədə C.Hacıyevin vəkili Fəxrəddin Mehdiyev müdafiə çıxışında istintaqın qanunsuz aparıldığını bildirib və müvəkilinə bəraət verilməsini istəyib.

**O bildirib ki, müvəkkilinə qarşı irəli sürülmüş ittiham qərəzli və ədalətsizdir:** "Məsələyə Cinayət Prosessual Məcəlləsinin tələbləri baxımından yanaşsaq görərik ki, bu mülki xarakterli işdir və mülki icraatda da baxılmalıdır. Ona görə də bu cinayət işinə bəraətverici əsaslarla xitam verilməlidir. Bu iş üzrə ibtidai istintaq və məhkəmə istintaqı qərəzli şəkildə aparılıb. Bütün qanunsuzluqlar ibtidai istintaqda başlayıb və hazırkı mərhələdə də davam etməkdədir. Cinayət işi Emil Mustafayevin *(Cahangir Hacıyev bankın sədri olaraqkən onun birinci müavini olub - **red.**)* ərizəsi əsasında başlanıb.

Təsəvvür edin ki, mülki xarakterli məsələ Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində araşdırılıb. İstintaq da qərəzli aparılıb. Bu qərəz nədə özünü göstərib? Birincisi Cahangir Hacıyevə qarşı fiziki və psixoloji təzyiqlər olub, ikinci isə iş birtərəfli aparılıb. Hər şey onun üzərində qurulub ki, nəyin bahasına olursa-olsun Cahangir Hacıyevə ittiham verilməlidir. Cahangir Hacıyev 38 gün qanunsuz olaraq Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılıb. Vəkil Aqil Layıcovun məhkəməyə müraciətindən sonra o, istintaq təcridxanasına köçürülüb. Onun barəsində heç bir zərurət olmadığı halda həbs qətimkan tədbiri seçilib".

**F.Mehdiyev qeyd edib ki, C.Hacıyevin həbs qərarı ilə bağlı şikayət Avropa Məhkəməsinə göndərilib:** "Məhkəmə prioritet qaydada şikayəti icraata qəbul edib. Dəfələrlə soruşduq ki, kreditlər hara yönəldilib? Ancaq bu məsələ araşdırılmalı və sonra bilinməli idi ki, nə mənimsənilib".

**Vəkil Cahangir Hacıyevə qarşı qərəzin səbəbini belə izah edib:** "Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva DİN-in sabiq polkovniki Hacı Məmmədov tərəfindən oğurlanmışdı. O zaman MTN-nin "Qara kəmər" əməliyyatından sonra Zamirə Hacıyeva azad edildi. Cahangir Hacıyevin o vaxtdan DİN-lə problemləri yaranmışdı. Ona görə də biz işin DİN-in tabeliyində olan Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində aparılmasına etiraz edirdik. Və bu işi araşdıran istintaq orqanının aidiyyəti üzrə dəyişdirilməsini istəmişdik. Amma bu barədə vəsatətlərimiz təmin edilmədi. İstintaq yekunlaşanda da biz etiraz etdik. Çünki istintaq natamam aparılmışdı. Bir çox məsələlər araşdırılmamışdı. Bu vəsatətimiz də təmin olunmadı. Həmçinin məhkəmə istintaqında da ən adi vəsatətlərimiz təmin olunmadı. Məsələn, Cahangir Hacıyevin şüşə qəfəsdən çıxarılması ilə bağlı adi texniki bir vəsatətimiz, ümumiyyətlə and içmək üçün bir vəsatətimiz belə təmin olunmadı. Halbuki, bu vəsatətlər birbaşa işin mahiyyətinə təsir edirdi. Kreditlərin ayrıldığı layihələrin mövcudluğunda şübhələnmək olmaz. Çünki bunu sübut edən sənədlər var".

**F.Mehdiyev bu iş üzrə digər şəxslərin də məsuliyyətə cəlb edilməli olduğunu söyləyib:** "Burada mütəşəkkil dəstədən söhbət gedə bilməz. Əgər bunlar mütəşəkkil dəstədirlərsə, Emin Mustafayev, Akif Əliyev hanı? Hansısa filial müdirlərini həbs ediblər, amma kredit müqavilələrinə imza çəkənləri məhkəmədə şahid kimi dindirirlər".

**C.Hacıyevin vəkili bankdan ayrılan kreditlərin gəlir gətirməməsini bu şəkildə müqayisələndirib:** "Prokuror deyir ki, əgər pullar layihələrə ayrılıbsa, niyə gəlir gətirməyib və kreditlər ödənməyib? Məgər yeni evlənən cütlükdən bir ay sonra uşaq tələb etmək olar? Bu layihələrin gəlir gətirməsi üçün müəyyən vaxt lazım idi. Kreditlərin ayrıldığı daxili layihələrə Dünyamin Xəlilov rəhbərlik edib. Onların istintaqda dindirilməsini tələb etdim. Ümumiyyətlə maraqlıdır ki, o, layihələr haqda danışanda bunları vahimə basır. Niyə qorxursunuz? Cahangir Hacıyevə 313-cü maddə ilə vəzifə saxtakarlığı ittihamı irəli sürülüb. Cahangir Hacıyev hansı sənədi saxtalaşdırıb? Haradadır belə bir sübut? C.Hacıyevin bankda işlədiyi dövrdə təmiz gəlir 2001-ci ildə 7.4 milyon, 2002-də 6.2 milyon, 2003-də 9.7 milyon, 2014-də 14.2 milyon, 2005-də 22.1 milyon, 2006-da 143.09 milyon, 2009-da 54 milyon, 2014-də 25 milyon dollar olub. Bu ərəfədə dövlət büdcəsindən bir manat belə ayrılmayıb. Ancaq rəhbərlik dəyişəndən sonra 2015-ci ildə 600 milyon manat ziyan olub. Bundan əlavə 3 milyard manat da bankın sağlamlaşdırılması üçün dövlət büdcəsindən ayrılıb. Bütün bunlardan sonra dövlətə zərəri kim vurub? Zərər də subyekt də məlumdur. İndi cinayət işini qaldırın".

**Növbəti çıxışçı isə C.Hacıyevin digər vəkili Aqil Layıcov olub.**

O da çıxışında cinayət işinin qanunsuz aparılmasından şikayətlənib.

Vəkil bildirib ki, Maliyyə Nazirliyi Cahangir Hacıyevə qara yaxmaqla məşğul olub, ancaq dövlətə bir manat da olsun investisiya gətirməyib: "Cahangir Hacıyev həbsdə olmasına baxmayaraq bu gün də ölkəyə xeyli investisiya cəlb etmək iqtidarındadır. Müvəkkilimin maliyyə sahəsindəki reytinqi Maliyyə Nazirliyinin reytinqindən iki dəfə yüksək olub. Bu da ona qarşı qərəzin yaranmasına rəvac verib".

**Vəkil əvvəlki proseslərdə qaldırdıqları vəsatətlərin təmin olunmamasına da toxunub:** "Bizim bəzi lazımi sənədlərin aidiyyəti qurumlardan alınaraq məhkəmədə araşdırılması ilə bağlı vəsatətlərimiz də təmin edilmədi. Ancaq məhkəmədə həmin sənədlərin məhkəməyə gətiriləcəyi deyilmişdi. Məhkəmədə ittiham tərəfinin 80-ə qədər şahidi dindirilib. Amma bizim bir nəfər belə olsun istədiyimiz şahid dindirilmədi.

Dəymiş zərərlər bağlı gündə bir rəqəm açıqlanır. Bu işin ağırlığını başa düşürük. Heç olmasa formal olaraq da bəzi addımlar atılmalı idi. Bu cinayət işi 2015-ci ilin aprel ayında açılıb. Qanuna görə istintaq maksimum 13 ay aparıla bilər. Bu işin istintaqı uzağı 2016-cı ilin mayında yekunlaşmalı idi. Amma iyul ayında yekunlaşdırılıb və məhkəməyə göndərilib. Bu da çox ciddi qanun pozuntusudur".

**Vəkil Changir Hacıyevin arvadı Zamirə Hacıyevanın arxasınca göndərilən əməliyyat qrupundan da danışıb:** "Biz Dünyamin Xəlilovun dindirilməsi ilə bağlı vəsatət qaldırsaq da, təmin edilmədi. Bəs necə olur ki, qrup yaradaraq Zamirə Hacıyevanın *(Zamirə Hacıyeva Böyük Britanayida yaşayır - **red.**)* arxasınca gedirsiniz, amma biz dediyimiz şəxsləri dindirə bilmirsiniz? Gətirərdiniz da, Zamirə Hacıyevanı, bəs nooldu?"

**Vəkil çıxışının sonunda müvəkkilinə bəraət verilməsini istəyib.**

Digər təqsirləndirilənlərin vəkilləri də çıxışlarında hüquqlarını müdafiə etdikləri şəxslərə qarşı irəli sürülən ittihamlarla razı olmadıqlarını, onlara bəraət verilməsini istəyiblər.

**Məhkəmə prosesi oktyabrın 5-də davam etdiriləcək.**

Xatırladaq ki, sonuncu məhkəmə prosesində dövlət ittihamçısı çıxış edərək təqsirləndirilən şəxslərə iş istəmişdi. Prokuror Fərid Nağıyev çıxışında Cahangir Hacıyevə 17 il, Anar Sultanov, İlqar Abdullayev, Məmməd Cahangirov, Kənan Orucovun hər birinə 8 il, İbrahim Hüseynovla Yusif Ələkbərova 11 il, Azad Cavadovun isə 12 il 11 ay azadlıqdan məhrum edilməsini tələb etmişdi.

Qeyd edək ki, bankın sabiq rəhbəri Cahangir Hacıyev, Beynəlxalq Bankın Mərkəzi filialının direktoru vəzifəsində işləmiş Anar Sultanov, bankın Mərkəzi filialının müdiri işləmiş İlqar Abduallayev, "İnter Security" MMC-nin direktoru işləmiş İbrahim Hüseynov, Mərkəzi filialın direktoru işləmiş Yusif Ələkbərov, bankın Nəqliyyat filialının direktoru işləmiş Kənan Orucov, bankın Nərimanov filialının direktoru işləmiş, hazırda AFB Bankın sədri olan Məmməd Cahangirov və Bakı Fındıq Zavodunun direktoru işləmiş Azad Cavadov Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016

**Oktyabrın 3-də Bakıda İslam Əməkdaşlıq Təşkilatına Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının konfransı keçirilib. Musavat.com xəbər verir ki, konfransın işində xarici ölkələrdən gələn jurnalistlər, səfirlər, dövlət rəhbərliyi, eləcə də Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov da iştirak edib.**



# İslam ölkələrinin media kapitanları Bakıda toplaşdılar

## Əli Həsənov: "Müsəlman ölkələrinin vahid internet resurslarının yaradılmasına ciddi ehtiyac var"

### İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin jurnalistlərini birləşdirəcək və informasiya sahəsində vahid platforma kimi çıxış edəcək qurumun yaradılması qərara alındı

APA-nın məlumatına görə, Konfransın açılışında çıxış edən İslam Əməkdaşlıq Təşkilatına Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri Fazil Abbasov deyib ki, İslam ölkələrinin jurnalistlərini bir araya gətirən qurumun yaradılmasına ehtiyac var.

**Sudanın Azərbaycandakı səfiri Mohamed Elias Mohamed Al-Had** İslam dininin həmrəylik dini olduğunu bildirib: "Başqalarına islamın ali məqsədlərinə ziyan yetirməyə imkan verməməliyik. Bəzən İslama məxsus olmayan dəyərləri ona aid etməyə cəhd edirlər".

**Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Musaid Bin İbrahim Vl-Sulaim** isə ölkəsinin müsəlmanların problemlərinin həlli üçün heç vaxt səylərini əsirgəmədiyini söyləyib.

**İranın Azərbaycandakı səfirinin müavini Davud Çərmi** qeyd edib ki, İran Assosiasiyanın yaradılmasını dəstəkləyir: "İnanıram ki, bu Assosiasiya İslam aləmini dünyada düzgün təmsil edəcək, islamofobiyanın qarşısının alınmasına xidmət edəcək".

**Türkiyənin Azərbaycandakı müvəqqəti işlər vəkili Meral Barlas** isə KİV-lərin məsuliyyətli olmasını zəruri sayıb: "Türkiyə və Azərbaycan mediası arasında sıx əlaqə var. Günümüzdə birtərəfli yayıma üstünlük verən Qərb mediası var. Dağlıq Qarabağ, Kipr kimi problemlər də beynəlxalq ictimaiyyətə yanlış şəkildə çatdırılır. Bu baxımdan müvafiq platformaların yaradılmasını dəstəkləyirik. Konfransa uğurlar arzulayıram".

**İndoneziyanın Azərbaycandakı səfiri Husnan Bəy Fananie** KİV-in demokratiyanın onurğa sütunu olduğunu vurğulayıb.

**İranın Azərbaycandakı müvəqqəti işlər vəkili Fazil Əl-Şübeyli** isə terroru dəstəkləyən ölkələrin dünyada İslam haqqında rəyi dəyişdirdiyini vurğulayıb: "İslam tolerantlığı təbliğ edir. Azərbaycan da tolerant bir ölkədir və Roma Papası Fransiskin səfəri bunun nümunəsidir. İnformasiya məsələsinə xüsusi diqqət yetirməliyik. İnformasiya mədəniyyətin təbliğində əsas rol oynayır".

"İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin jurnalistlərini birləşdirəcək və informasiya sahəsində vahid platforma kimi çıxış edəcək qurumun yaradılması bir neçə ildir ki, ən müxtəlif səviyyələrdə müzakirə olunur. Sevindirici haldır ki, artıq bu təşəbbüs reallaşdırılması üçün praktiki addımlar atılır və qarşıdan gələn dövrdə onun həm də İslam Əməkdaşlıq Təşkilatı tərəfindən ciddi şəkildə dəstəklənəcəyinə ümid edirik".

**APA-nın məlumatına görə, bu sözləri Əli Həsənov deyib.**

Ə.Həsənov bildirib ki, hazırda dünyada, o cümlədən bir çox müsəlman ölkəsində sabitliyə zərbə vuran müxtəlif neqativ proseslər, digər tərəfdən isə barışığı, sülh və əmin-amanlığı təcəssüm etdirən İslam dini haqqında yanlış rəy formalaşdırmaq cəhdləri bizi narahat etməyə bilməz: "Bütün ərəb dünyasını sarsıdan siyasi hadisələr, o cümlədən Fələstin xalqının milli müstəqillik uğrunda mübarizəsi, Suriyada hərbi əməliyyatlar, Ermənistanın Azərbaycana hərbi təcavüzü və Dağlıq Qarabağ münaqişəsi, digər bu kimi problemlər İslam aləmində davamlı sülhün və təhlükəsizliyin təmin olunmasına, stabil inkişafa manea yaradan, habelə səylərimizin vahid məqsəd uğrunda səfərbər edilməsini zərurətə çevirən ciddi faktorlardır. Təəssüflə qeyd etməliyik ki, Qərbin islamofob dairələri və transmilli mediası müsəlman dünyasında baş verən hadisələri, prosesləri birtərəfli və əsasən qərəzli formada təqdim edir. Nəticə etibarilə maddi və mənəvi zənginliyə malik olan müsəlman ölkələri, tolerant və multikultural xarakteri ilə seçilən müsəlman xalqları, həm də sülh və barışıq dini olan İslam dini haqqında beynəlxalq ictimaiyyətdə qeyri-obyektiv və yanlış təsəvvür yaradılır. İslamı terrorla eyniləşdirmək, hər bir müsəlmanı potensial terrorçu obrazında təqdim etmək, İslam dəyərlərini ümumbəşəri dəyərlərdən ayıraraq yad və zərərli element kimi qələmə vermək cəhdləri haqlı olaraq bütün İslam aləmində ciddi etirazlar doğurur".

**Ə.Həsənov Ermənistanın 20 ildən artıqdır ki, Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxladığını xatırladıb:** "Azərbaycanın tarixi torpaqlarında bütün infrastrukturla yanaşı, milli, mədəni və dini abidələr, məscidlər də dağıdılıb. Həmin ərazilərin işğaldan azad olunması ilə bağlı BMT, ATƏT, Avropa Şurası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən müvafiq qərar və qətnamələr qəbul edilib. Təəssüf ki, bütün bunların konkret nəticəsi olmayıb. Ermənistan nəinki beynəlxalq qanunları, nüfuzlu təşkilatların qərarlarını qulaqardına vurur, öz haqsız mövqeyini əsaslandırmaq üçün işğalçı siyasətinə dini rəng verərək İslam dəyərlərini gözdən salmağa, xristian həmrəyliyi faktorundan, Qərbin islamofob dairələrindən, aparıcı media resurslarının imkanlarından yararlanmağa çalışır və bəzi hallarda buna nail olur. Əminliklə demək olar ki, oxşar problemləri olan digər müsəlman ölkələr də mütəmadi olaraq belə hallarla rastlaşırlar. Bu faktlar islam həmrəyliyinin gücləndirilməsi ilə yanaşı, informasiya sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsinə böyük ehtiyac olduğunu əyani şəkildə təsdiq edir. Vahid informasiya məkanının, transmilli medianın mövcud olduğu müasir dövrdə informasiya mübadiləsi dövlətlərarası əlaqələrin inkişafında mühüm amilə çevrilib, beynəlxalq ictimai fikrin formalaşması və ifadə olunmasını təmin edən təsirli vasitə olub. Odur ki, çevik informasiya siyasətinin formalaşdırılması, qlobal şəbəkədə tələb olunan fəaliyyət prioritetlərinin müəyyənləşdirilməsi, ölkələrin informasiya təhlükəsizliyinin təmin edilməsi hər bir dövlət, o cümlədən islam ölkələri üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdir".

**Ə.Həsənov qeyd edib ki, 2012-ci ildə Qabonun paytaxtı Libervill şəhərində, 2014-cü ildə isə Tehranda İran İslam Respublikasının paytaxtı Tehranda İƏT-ə üzv ölkələrin informasiya nazirlərinin 9-cu və 10-cu toplantılarında informasiya sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə ciddi qərarlar qəbul olunub:** "Hesab edirik ki, İslam ölkələrinin informasiya vasitələrində obyektivliyin və həmrəyliyin təmin edilməsi, bu məqsədlə KİV-lərin fəaliyyətinin əlaqələndirilməsi, birgə media təsisatlarının yaradılması və onların məqsədyönlü fəaliyyətinin təşkili, müsəlman dünyasının maraqları naminə dünyanın aparıcı KİV-ləri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, aktual mövzularla bağlı forum və konfransların təşkili və digər bu kimi tədbirlər hazırda öz aktuallığını getdikcə artırır.

İKT-yə üzv ölkələrin KİV-ləri arasında obyektiv informasiya mübadiləsinin genişləndirilməsi, virtual dünya məkanında birgə fəaliyyətin koordinasiyası, vahid internet resurslarının yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi ehtiyac var. Azərbaycan Respublikası dünyada İslam həmrəyliyinin gücləndirilməsi, müsəlman ölkələri arasında əməkdaşlığın və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi işinə həmişə öz töhfəsini verib və verəcək. Hesab edirik ki, 2017-ci ildə Bakıda keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəyliyi Oyunları da ümumi mənafelərimizə xidmət edəcək. Artıq Azərbaycan mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə böyük təcrübə qazanıb.

Çalışacağıq ki, IV İslam Həmrəyliyi Oyunları həm də bütün İslam dünyasının zəngin potensialının, müsəlman ölkələri arasında dostluq və həmrəyliyin təcəssümü kimi bütün dünyanın diqqətini özünə cəlb etsin. İnanırıq ki, bu, bütün müsəlman ölkələrinin media nümayəndələri üçün də əlverişli fürsət olacaq. Bu amili, habelə müsəlman ölkələri arasında informasiya mübadiləsinin səviyyəsinin yüksəldilməsi, İslam həmrəyliyinə kənar və neqativ xarakterli təsirlərin aradan qaldırılması, İslam dininin, müsəlman dünyasının yüksək mənəvi dəyərlərinin daha effektli təbliği və digər məsələlərin uğurla həllini təmin etmək üçün yeni yaradılmış İslam Əməkdaşlıq Təşkilatına Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyası dəstəklənməli, onun məqsədyönlü fəaliyyətinə hərtərəfli yardım göstərilməlidir. Bu gün İƏT-ə üzv ölkələrin səfirlərinin, jurnalistlərinin konfransda iştirakını bu təşəbbüsə dəstəyin ifadəsi kimi başa düşmək olar. Bir daha ümid edirik ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin informasiya nazirlərinin növbəti toplantısında bu təşəbbüs fəal müzakirə olunacaq və jurnalist assosiasiyasının səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq qərarlar qəbul ediləcək".

"İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin 2014-cü il dekabrın 3-də Tehranda keçirilən toplantısında ilk dəfə Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının yaradılması təşəbbüsü ilə çıxış edib. Həmin konfransda mən bu təşəbbüsü səsləndirdim" - deyə, Əli Həsənov bildirib.

Ə.Həsənov qeyd edib ki, Azərbaycan həmin vaxt Assosiasiyanın katibliyinin də ölkəmizdə yerləşdirilməsini təklif edib: "İslamın mahiyyətinin təhrif edilməsinin, müsəlmanların terrorçu kimi təqdim olunması meyllərinin qarşısının alınması üçün İslam ölkələri jurnalistlərinin bir platformada bir araya gəlməsi, fəaliyyətlərini əlaqələndirməsi zəruridir. Azərbaycan prezidenti İlham Əliyev Bakıda keçirilən Humanitar Forumda da İslam ölkələrinin həmrəyliyinin zəruri olduğunu vurğuladı. İnanırıq ki, bu məsələ İƏT-ə üzv ölkələrin informasiya nazirlərinin 11-ci toplantısının müzakirəsinə çıxarılacaq, 2017-ci ildə Bakı şəhərində İƏT-ə üzv dövlətlərin jurnalistlərinin iştirakı ilə yeni yaranmış qurumun birinci konfransı təşkil ediləcək".








**Sonda İƏT-ə Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının Bakı Konfransının iştirakçıları Bəyanat qəbul ediblər.**

Bəyanatda deyilir ki, İslam dini haqqında yanlış rəy formalaşdırmaq cəhdləri narahatlıq doğurur: "Biz jurnalistlər təəssüflə qeyd edirik ki, Qərbin islamafob dairələri, onların idarə etdiyi transmilli KİV-lər və təşkilatlar müsəlman dünyasında baş verən hadisələri, prosesləri birtərəfli və əsasən, qərəzli formada təqdim edir. Buna görə də beynəlxalq ictimaiyyətdə müsəlman ölkələri və İslam dini haqqında yanlış təsəvvür yaranır. İslam terrorla eyniləşdirilir, hər bir müsəlman isə potensial terrorçu obrazında təqdim olunur. Yaranmış vəziyyət müsəlman ölkələri arasında fikir ayrılıqlarının aradan qaldırılmasının, vahid mövqeyin formalaşdırılmasını, vahid mövqeyin kimi informasiya sahəsində də qarşılıqlı əlaqələrin gücləndirilməsini zərurətə çevirib".

"Biz Bakı şəhərində keçirilən konfransın iştirakçıları İƏT-ə üzv dövlətlərin Jurnalistlər Assosiasiyasının yaradılmasını dəstəklədiyimizi bəyan edirik. Bu məsələnin İƏT-ə üzv ölkələrin informasiya nazirlərinin 11-ci toplantısının müzakirəsinə çıxarılmasına, 2017-ci ildə Bakı şəhərində İƏT-ə üzv dövlətlərin jurnalistlərinin iştirakı ilə yeni yaranmış qurumun birinci konfransının təşkili üçün İƏT katibliyindən müvafiq tədbirlərin görülməsini xahiş edirik" - deyə sənəddə qeyd edilir.

# Rusiyada dərsliklər "uşaq dili"nə uyğunlaşdırılır; bəs Azərbaycanda?

**Rusiya Təhsil Akademiyasının prezidenti Lüdmila Verbitskaya gözlənilməz təkliflə çıxış edib. O, rus yazıçısı Lev Tolstoyun dünya ədəbiyyatının şah əsəri hesab olunan "Hərb və Sülh" romanının məktəb dərsliklərindən çıxarılmasını təklif edib. Akademiya prezidenti həmçinin digər bir məşhur rus yazıçısı Dostoyevskinin də bəzi əsərlərinin məktəb proqramından çıxarılmalı olduğunu bildirib. Verbitskaya fikrini həmin əsərlərin həddindən artıq çətin, məktəblilər üçün dərkedilməz olması ilə əlaqələndirib.**



**Etibar Əliyev:** "Hüseyn Cavidin, Abbasqulu ağa Bakıxanovun, Yusif Vəzir Çəmənzəminlinin dili çətindir, bu əsərlər kiçik təhlillərlə verilməlidir"



**Kamran Əsədov:** "Qəlizləşdirilmələr özünü daha çox riyaziyyat və tarix fənnində göstərir"

*Maraqlıdır, Azərbaycan dərsliklərində də bu yöndə islahatlar aparılmalıdırmı? Bizim dərsliklərdə də hansı yazıçıların əsərləri qəlizdir və dərs proqramından çıxarılmalıdır?*

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** Azərbaycan dərsliklərində də çətin və qəliz dildə yazılmış əsərlər olduğunu dedi: "Dərsliklərin yazılmasında əsas kriteriyalardan biri uşaqların yaşına uyğun mətnlərin verilməsidir. Təəssüflər olsun ki, bizdə də bir neçə dərsliklərdə, xüsusən də humanitar yönümlü dərsliklərdə xeyli mətnlər verilib ki, onlar şagirdlər tərəfindən başa düşülmür. Ümumiyyətlə, söhbət əgər ədəbiyyatdan gedirsə, bu dərsliklərdə yazıçıların elə əsərləri seçilib verilməlidir ki, o əsərlər şagirdlər tərəfindən dərk edilsin. Eyni zamanda onların tərbiyəsində, həyata baxışlarının dəyişməsində həmin əsərlərin rolu olsun. Məsələn, bizdə Hüseyn Cavidin, Abbasqulu ağa Bakıxanovun, Yusif Vəzir Çəmənzəminlinin dili çətindir. Onların əsərlərini kiçik təhlillər vasitəsi ilə vermək lazımdır ki, mətni intepretasiya etməklə uşaqlar onu başa düşsünlər. Amma istedadlı uşaqlar da var ki, onlar istər-istəməz çətin mətnlərə meyl edirlər. Məsələn, Dostoyevski kimi yazıçıların mürəkkəb əsərləri də var, şagird və müəllim tərəfindən başadüşülən sadə əsərləri də. Ona görə də bu məsələlərə çox ciddi yanaşmaq lazımdır. Bizim dərsliklərdə də bu gün problemlər var. Onlar aradan qaldırılmalıdır. Mütləq mətni qavramaq üçün şagirdlərin yaşı nəzərə alınmalıdır. Yaxud da mətnin içərisində hansı anlayışlar başa düşülməyəcəksə, onların kiçik lüğəti verilməlidir. Ümumiyyətlə, elə bir dərslik hazırlamaq lazımdır ki, tədris üçün asan olsun və şagird onu dərk edə bilsin".

**Təhsil eksperti Kamran Əsədov** da bildirdi ki, dərsliklər kifayət qədər sadələşdirilməlidir: "Təəssüflər olsun ki, postsovet məkanı ölkələrində hələ də dərslik yazımı, dərslik siyasəti keçmiş SSRİ standartlarına uyğun olaraq hazırlanır. Azərbaycan digərlərindən fərqli olaraq müasir tədris və dərslik strategiyasına qoşulub. Amma yenə də həmin standartlar keçmiş sovet tələbinə uyğun olaraq həyata keçirilir. Bir məsələni nəzərinizə çatdırım ki, Avropa və Amerikada qəbul edilmiş dərsliklərdə 3 suala cavab tapılır. Siz bu dərsliyi necə yazırsınız, nə üçün yazırsınız və hansı nəsil üçün nəzərdə tutursunuz? Təəssüflər olsun ki, bu gün Azərbaycan orta məktəblərində istifadə edilən dərsliklərdəki qəlizlik lazımsız mövzuların kifayət qədər olduğunu əsaslandırıb. Məsələn, 5-ci sinfin "Ata yurdu" kitabında uşaq ibtidai icma quruluşu haqında məlumat öyrənir. 1 il sonra isə təkrar mövzunu 6-cı sinfin tarix kitabında keçir. Kurikulumun tələblərinə görə 9-cu sinifdə kitab bitir və 10-11-ci sinif artıq təmayül sayılır. Ancaq 10-cu sinifdə şagird yenidən ibtidai icma quruluşu ilə tanış olur. Əgər şagird universitetə qəbul olursa, yenidən tarix fənnini keçir və eyni mövzunu yenidən öyrənir. Yəni bir şagird bir mövzunu 4-5 dəfə keçmiş olur. Deməli, Azərbaycan dərslikləri kifayət qədər sadələşdirilməlidir. Bu gün bütün dərsliklərimiz elm sahəsinə aid olan bütün informasiyalarla yüklənib. Yaxud da Azərbaycan dilinin bütün qaydalarının hamısı orta məktəbdə keçirilir. Bu belə olmamalıdır. Mən təklif edirəm ki, bu qaydaların müəyyən hissəsi orta məktəblərdə, digər hissəsi isə ali məktəblərdə keçirilsin. Bu gün orta məktəb dərslikləri ilə ali məktəb dərslikləri arasında eyniyyət var. Daha çox da eyni müəlliflər yazırlar. Amma istər Rusiyada, istərsə də digər ölkələrdə dərslikləri ali məktəb mütəxəssisləri yox, orta məktəb müəllimləri yazır. Əlbəttə, bizim də dərsliklərdə kifayət qədər qəliz məsələlər var. Məsələn, 6-cı sinif "Azərbaycan tarixi"ndə ibtidai icma quruluşu 7 paraqraf, 50 səhifə kimi geniş bir yer tutur. Bütün dövlətlərin hökmdarlarının adları, hakimiyyət illəri göstərilib ki, bunun da öyrənilməsi şagird yaşına və psixologiyasına uyğun deyil".

**Ekspert qəlizləşmənin daha çox riyaziyyat və tarix fənlərində özünü göstərdiyini dedi:** "Ədəbiyyat dərsliklərimizdə də kifayət qədər qəliz və lazımsız nümunələr var. Dərslik yönləndirici tədqiqata meylli olmalıdır. Biz hansısa yazar, əsər haqqında dərslikdə kiçik bir informasiya verməliyik. Əgər şagirddə maraq oyanarsa, o gedib həmin hekayəni özü oxumalıdır. Onlar bir neçə əsrin müəllifləridir və onların yazı üslubu indiki dilə uyğun deyil. Məsələn, Nizaminin, Füzulinin əsərlərində kifayət qədər ərəb fars sözləri var və şagird bunları oxuyarkən anlamır, sadəcə, əzbərçiliyə meyl edir. Əlbəttə, Nizaminin, Füzulinin yaradıcılığı Azərbaycanın şah əsəridir. Daha çox sadə dildə yazılan bir neçə cümlələr verilməlidir. Dünya ölkələrində bizim orta məktəblərdə qəbul edilmiş dərslik prinsipi qəbul edilmir. Biz uşaqları həddindən çox informasiya ilə yükləyirik. Hesab edirəm ki, qəbul edilmiş yeni dərslik strategiyasında bunlar sadələşdirilməlidir. Amma təəssüflər olsun ki, bizdə sadələşdirilmə daha çox qəlizləşdirməyə xidmət edir. Bu gün orta məktəblərdə riyaziyyatdan elə mövzular salınır ki, o ali məktəbdə ayrıca bir kursdur. Qəlizləşdirilmələr özünü daha çox riyaziyyat və tarix fənnində göstərir. Hesab edirəm ki, hər iki fənn ciddi şəkildə sadələşdirilməlidir".

❑ **Günel MANAFLI**

# C.Kerrinin etirafları və ya yolumuz hayanadır?



**Hüseynbala SƏLİMOV**

**Yada salanda ki, Barak Obama administrasiyasının hakimiyyətinə çox qalmayıb, bir çox məsələləri daha asan başa düşmək olur. Siyasətçilər böyük siyasətdən getmək ərəfəsində daha səmimi olur, başqa vaxt özlərinə rəva görmədikləri sərbəstliklərə yol verirlər...**

Mən B.Obama ilə birgə C.Kerrinin də siyasi karyerasının tamam bitəcəyini deyə bilmərəm. Səhv etmirəmsə, Kerrinin arxasında böyük parlamentarilik - Konqres üzvlüyü təcrübəsi vardı. Kim bilir, bəlkə o, bir daha Konqresə qayıtmağa cəhd edəcək?

İndi noyabrda keçiriləcək seçkilərdə kimin - respublikaçıların, yoxsa demokratların qalib gələcəyini birmənalı şəkildə demək çətindir. Amma güman edirik ki, H.Klinton qalib gəlsə belə, böyük ehtimalla daha Kerri dövlət katibi olmayacaq. Ona görə də o, səmimi etirafları, dünyanın bu və digər bölgəsində baş verən proseslərlə bağlı açıq fikir mübadiləsini özünə rəva görə bilər...

Bu mənada mənə Kerrinin Qarabağ və Suriya məsələsi ilə bağlı açıqlamaları çox maraqlı göründü. Başa düşdüyüm bu oldu ki, bəli, ABŞ Rusiya ilə bacarmır...

Təbii ki, mən burada ABŞ-Rusiya münasibətlərini çözmək fikrində deyiləm. Həm bunu vaxtilə çox etmişəm, həm də bu gün bu məsələ məni elə də qayğılandırmır...

Daha çox Kerrinin bir açıqlaması üzərində dayanmaq istərdim. O, bu yaxınlarda demişdi ki, Qarabağ probleminin indiki zamanda həlli mümkün deyil. Başqa bir vaxt həmsədr ölkələrdən birinin bu qədər açıq danışmasının şahidi olmamışam. Diplomatiya elə şeydir ki, bu sahənin adamları adətən birmənalı açıqlamaları özlərinə rəva görmürlər. Amma Kerrinin niyə belə etdiyinin səbəbini əvvəldə dedim - o, böyük siyasətdən getmək ərəfəsindədir. Maraqlı olan isə başqa bir məsələdir. Şəxsən mən ümid edirdim ki, payızda Qarabağ prosesinə yerindən start vermək mümkün olacaq. Amma indi baxıb görürəm ki, bu, heç də belə deyildir və biz intensiv diplomatik prosesin şahidi olmayacağıq...

Şəxsən mənim ümidlərimin artması onunla bağlı idi ki, ABŞ da "yeni Rusiya planı"na dəstək verirdi. Üstəlik, ruslar yaman başlamışdılar və çox təəssüf ki, yamanca da bitirdilər. Nələr oldu qısaca müddətdə? Bəli, S.Sarkisyan daha bir oyun oynayıb Rusiyaya mesajlar göndərdi. Rusiya da, eləmə tənbəllik, hamının ümidli bir çağında Ermənistanda "İskander" raketlərini nümayişə çıxartdı. Bu, əslində o deməkdi ki, Azərbaycan hərbi planlar qurmamalıdır, çünki ermənilər yeməyə çörək tapmasalar da, silah sarıdan korluq çəkmirlər - bu silahı onlara İvan dayı verəcək, özü də pulsuz-filansız...

Mən bütün məsələləri bir tərəfə qoyuram. Rusiya bununla həm də bölgədə silahlanma yarışına rəvac verir. Azərbaycan baxıb görür ki, bəs düşmən Ermənistanda filan silah peyda olub. Müharibə aparan və yaxud müharibəyə cəlb olunan ölkə kimi o, nə etməlidir? Təbii ki, özünün hərbi xərclərini bir az da artırmalıdır. Son nəticədə qazanan kim olur? Sözsüz ki, Rusiya, çünki biz silahları əsasən bu ölkədən alırıq...

Bu, məsələnin hərbi-diplomatik tərəfidir. Digər cəhətlərə gəldikdə isə, deməli, bu il ilk dəfə yaranan hərbi üstünlükdən diplomatik dividendlər götürmək mümkün olmadı. Bizsə ümidli idik...

Əslində "İskander" raketlərini Yerevan küçələrinə çıxarmaqla Rusiya özü məsələni bir az da qəlizləşdirdi. Bəlkə də bunu da qəsdən etdilər. Bəlkə də Azərbaycana işarə etmək istəyirdilər ki, bir neçə rayonla kifayətlənsin və Dağlıq Qarabağın "aralıq status"una razılığını versin...

Qərəz, məsələ yenə də düyünə düşdü. Ona görə də Kerrinin açıqlaması mənə bir az səmimi görünür. Əgər Suriya ilə bağlı da açıqlama olmasaydı düşünmək olardı ki, ABŞ-ın birinci diplomatı bir az riyakarlıq edir. Amma yazılanlar və deyilənlər doğrudursa, Kerri suriyalı müxalifət adamları ilə görüşdə daha dərinə gedib, az qala "kövrəlib"...

Bir sözlə, bacarmırlar... Yenə də deyirəm, əgər ABŞ Suriyada və yaxud da Ukraynada ciddi bir iş görə bilsəydi onu riyakarlıqda suçlamaq olardı, gəl ki, orada da heç nə edə bilmirlər...

Bilirsiniz, bu, çox maraqlı məsələdir. Amerikalılar bir neçə istiqamətdən cəhd etdilər ki, Rusiyanı yerində oturtsunlar. Amma alınmadı...

Bu günlərdə Rusiya kanallarından birində bir verilişə baxırdım. Tanınmış və siyasi cəhətdən mürəkkəb reputasiyası olan politoloq C.Şarp özü etiraf etdi ki, onun bir neçə ölkədə sınaqdan çıxmış nəzəriyyəsi Rusiyada keçmədi, bu ölkədə "rəngli inqilab" yapmaq olmadı...

**Amma mən tam ümidsiz də deyiləm. "Rəngli inqilab" bir dəfə Rusiyada baş tutmuşdu - M.Qorbaçovun dövründə. O vaxt böyük bir imperiya, özü də nüvə dövləti böyük təlatümlər olmadan çökdü. Əgər bir dəfə belə bir şey olmuşdusa bir daha olar. Ən azı ona görə ki, öz səhvlərindən nəticə çıxarmayanlar onu təkrar yaşamalı olurlar...**



# Özünü yeməyin elmi

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən tibb üzrə 2016-cı il Nobel ödülünü yapon alimi Yosinori Osuminin aldığını açıqladılar. Yapon alim hüceyrələrin avtofaqiya mexanizmlərini araşdırıb. Bu avtofaqiya qısa olaraq nə deməkdir? Loru dildə yazım. Təsəvvür edin, hüceyrə hansısa aclıq çəkir, ya da içində bir problem çıxır. Bu zaman hüceyrədə həmin avtofaqiya mexanizmi işə düşür: hüceyrə özü-özünü yeyir, axırına çıxır. Həmin prosesdən qalan artıq-urtuğu isə başqa hüceyrələr süpürüb atırlar. Vəssalam. "Avtofaqiya" termin olaraq qədim yunanca "avto" - "özüm, mən", "faqiya" isə "yeyirəm" deməkdir.**

Mənim diqqətimi çəkən də elə bu avtofaqiya ilə hər gün rastlaşmağımızdır, hətta deyərdim, bizim cəmiyyətimiz, Azərbaycan xalqı avtofaq mexanizmlərlə yaşayır. Bir millət nə qədər öz-özünü yeyə bilər? Nə qədər içində dərd çəkər? Hətta bu sosial avtofaqiyamız ata sözlərimizdə də əksini tapmışdır: "İçim özümü yandırır, çölüm özgəni", "Özü özünə eləyəni, el yığılsa eləyə bilməz", "Ac qurd sürünün ortasına girər" *(bu lap hüceyrə avtofaqiyasının düsturu kimi bir zaddır)*.

İndi özünüz deyin, bu qədər avtofaq bir xalq nə üçün bunun elmi kəşfini yapona buraxdı? Niyə AMEA ölüb yerə girmir, nədən təbiblərimiz öz hüceyrələrini yemirlər?

Yemək demişkən, xəbər var ki, əsas ərzaq monopolistimiz "Azərsun" müəllim ərzaqların qiymətini təzədən qaldırıbdır. Bundan başqa, gömrük rüsumlarına da türkün sözü, "zam" gəlir, idxal edilən çoxlu ərzaq növlərində bahalaşma qaçılmazdır. Nə etməli? Zəhmətkeşlərimizi bu düşündürür. Əslində heç kimi düşündürmür, ironiya üçün yazdım. O "Kişi sözü" filmində deyilən kimi: "Başa düşmək üçün adamda gərək baş olsun". Biz toplum olaraq əsasən qarnımızla fikirləşirik, o da quruldayanda. Hələlik rüsum və bahaçılığın dalğaları tam olaraq qarnımıza çatmayıb, hardasa ağız nahiyəsində dolaşıb dil-dodağımızı qurutmaqdadır. Xəbər qarına çatanda da, ya mədəd... Hökumət bir tədbir görəcək, misal üçün, yumurta festivalı, çörəyin kəpəyini azaltmaq, jmıxı bol eləmək kimi işlərlə zəhmətkeşləri yola verirsən, dağılışırlar. Hətta mən deyərdim təzə referendum keçirib konstitusiyanı yaxşılaşdırmaq olar. Bir növ adətkərdəyik axı, hər bahaçılıq olanda konstitusiyanı dəyişirik. Roma papasından artıq katoliklik, hökumətdən artıq hökumətlik eləməyəcəksən ki?

Bu arada Roma papası demişkən, adam gəldi-getdi, ancaq ərazi bütövlüyümüzü təsdiqləmədi. Hardasa bu temada təəssüf dolu başlıq gözümə dəydi, yoxsa Papa izləyən deyiləm, nəyimə lazım? Papanı katakomba təmir edənlər izləsin, bizim "kruqumuz" ayrıdır, necə deyərlər. Məni sadəcə o təəssüfün yiyəsindəki körpə saflığı düşündürdü. Guya Papa bizim ərazi bütövlüyümüz haqda bəyanat versə nəsə olacaqmış... Təzə təpə alıb adını Papatəpə qoyardıq.

Ümumiyyətlə, mən bu ərazi bütövlüyü məsələsində ancaq Zakir müəllimə arxayınam. Son xəbərə görə Zakir müəllim cəbhə xəttində o qədər şəkil çəkdirib ki, ermənilərin gözü fotoaparatın işığından kor olub. Qalır indi gedib yerləşməyimiz. Sadəcə, ermənilərin kor olması da problemdir, çünki məlum məsələdir, kor tutduğunu buraxmır. Çətin olacaq, ancaq mümkündür. Təki vətən sağ olsun.

Sonda bir məlumat da verim, uca xalqımız bilsin: Nəqliyyat Nazirliyinin daha bir səlahiyyəti ləğv olunub. Zarafat eləyirəm, Ziya müəllimi qorxudurdum sadəcə. Orda səlahiyyət qalmayıb onsuz, hamısı ləğv edilib, Ziya müəllim də indi boş portfelini götürüb inersiya ilə nazirliyə gedir, divanda uzanıb pəncərədən buludlara baxır.

**Bəlkə pəncərədən baxmaq səlahiyyətini ləğv edək? Öz daxilinə baxsın - avtofaqiya kimi. Maraqlı olardı. Əyləncəli həm də. Təzə referendumdan ucuz başa gələr.**

# Tehranın ağırlaşan Qarabağ dilemması - ya 5 rayon, ya da...

**İran prezidenti Həsən Ruhani tezliklə Ermənistana səfər edəcək. Hələlik səfərin konkret tarixi bilinməsə də, onun çox ləngiməyəcəyi, hətta bu ayda reallaşacağı gözlənilir. Hər necə olmasa, nə rəsmi Tehran, nə də İrəvan səfərlə bağlı yayılan informasiyanı təkzib etməyib.**

**Həsən Ruhaninin Ermənistan səfərini labüd edən ən ciddi motiv isə onun ötən yay Bakıda Azərbaycan və Rusiya prezidentləri ilə iki və üçtərəfli görüşlər keçirməsi, iqtisadi-ticari, energetik-nəqliyyat sahələri üzrə üçtərəfli anlaşmaların əldə olunmasında iştirakıdır.**




## Ruhani Bakıdan İrəvana hansı mesajları aparır - kritik gözlənti

### Öz qonşuluğunda daha bir qanlı savaşın qızışmasında maraqlı olmayan İranın lideri işğalçı ölkənin başçısını konstruktivliyə inandıra biləcəkmi?; Rəsmi Tehranın vasitəçilik imkanları məhdud olsa da, Ermənistana real təsir rıçaqları hələ ki qalır; istifadə olunacaqmı...

Bəllidir ki, həmin səfər və Bakı zirvəsi, habelə İranla ölkəmiz arasında əlaqələrin dərinləşməsi işğalçı tərəfdə dərin təlaş doğurub. Çünki İran Rusiyadan sonra Ermənistanın ikinci mühüm tərəfdaşı, quru sərhədi olan yeganə tərəfdaşı və "nəfəsliyidir".

Üstəlik, Həsən Ruhani Bakıda azərbaycanlı həmkarı İlham Əliyevlə Qarabağ konfliktinin həll yollarını müzakirə eləmiş, ölkəmizin ərazi bütövlüyü və suverenliyini İranın dəstəklədiyini açıq bəyan eləmişdi. Ruhani habelə, rəsmi Tehranın münaqişənin müstəsna olaraq dinc yolla həllinə tərəfdar olduğunu bildirmişdi.

***

Bir çox müşahidəçilərə görə, Tehranın öz qonşuluğunda yeni müharibə sarıdan narahatlığı təbiidir. Çünki o halda İran da istər-istəməz münaqişəyə hansısa şəkildə müdaxilə etməli olacaq. Həmçinin, İrandakı Güney amili Qarabağa görə hərəkətə gələcək, qonşu Türkiyə konfliktə Azərbaycan tərəfdə müdaxilə edəcək, nəhayət, Tehranın nəinki Azərbaycan və Rusiya ilə, eləcə də Ermənistanla iqtisadi layihələri təhlükə altına düşəcək. İqtisadi-maliyyə durumu yaxşı olmayan və beynəlxalq sanksiyalardan təzəcə qurtulan İrana isə hadisələrin bu cür inkişafı qətiyyən əl vermir.

Bu xüsusda istisna deyil ki, İran prezidenti İrəvana təkcə Bakı səfərindən dolayı hansısa siyasi balans yaratmaq və iqtisadi ikitərəfli iqtisadi əlaqələri genişləndirmək üçün getmir, eyni zamanda və daha çox, münaqişə bölgəsində yeni müharibə ehtimalının nə dərəcədə real olduğunu İrəvana "anlatmaq" üçün yollanır. Hər necə olmasa, İran da apreldəki döyüşlərdən sonra Qarabağ danışıqlarının təzədən dalana girdiyinin fərqindədir.

Bundan əlavə, Ruhani İrəvana artıq həm də rəsmi Bakının, prezident İlham Əliyevin konkret mövqeyi ilə, daha dəqiqi, bəzi mesajlarla gedir. Söhbət əlbəttə ki, prezident Serj Sərkisyana bir az "ağıl vermək"dən, onu reallığa qaytarmaqdan, o sırada Qarabağda yeni hərbi qarşıdurmalara rəvac verəcək addım və mövqedən erməni tərəfini çəkindirməkdən gedir.

Bundan ötrü isə Ermənistan rəhbərliyinin Qarabağ məsələsində radikal, maksimalist deyil, yumşaq mövqe tutması tələb olunur, əks halda mövcud status-kvonu yenə artilleriya atəşləri pozacaq - özü də bu dəfə daha geniş miqyasda. Ruhani bunu bilir.

***

Bəs İran lideri istəyinə nail ola biləcəkmi? Söyləmək çətindir. Bir şey dəqiqdir ki, Tehranın vasitəçilik imkanları məhdud olsa da, onun İrəvana real təsir rıçaqları hələ ki qalır. Biri elə cənub qonşumuzun Ermənistan üçün iqtisadi "nəfəslik" rolunda qalmaqda davam eləməsi.

Doğrudur, Qarabağ ixtilafının köklü həlli Rusiya kimi İranı da qane eləmir. Çünki bu halda xüsusən də Azərbaycan güclənəcək, onun siyasi müstəqilliyi möhkəmlənəcək, iqtisadi inkişafı sürətlənəcək, həmçinin, Bakı hərbi xərclərə ayırdığı böyük vəsaitləri iqtisadiyyatın müxtəlif sahələrinə yönəldə biləcək və nəhayət, onun Güneyə təsiri artacaq. Lakin münaqişənin dondurulmuş vəziyyətdə qalması və ya ən yaxşı halda 5 rayon variantının gerçəkləşməsi isə Azərbaycanı yenə də Moskva və Tehranla ehtiyatlı olmağa vadar edəcək.

Konkret İrana gəlincə, analitiklərə görə, əslində Tehran İsrail və Türkiyə ilə son illər geniş əlaqələr qurmuş güclü Azərbaycan yox, məhz güclü Ermənistanda maraqlıdır. Yəni gerçək budur ki, Tehran işğalçı ölkəni özünə daha etibarlı sayır. Ruhaninin İrəvan səfərində bir mesaj da yəqin elə bu ola bilər ki, "Azərbaycanla yaxınlaşmağa rəğmən, Tehran Ermənistanı unutmayıb, onu Azərbaycanla əvəzləməyib, onun yanındadır".

***

Fəqət, sərt reallıq belədir ki, İranın Azərbaycan və Ermənistana münasibətindən asılı olmayaraq, müharibə gələndə heç kimdən soruşmayacaq. Müharibə isə yuxarıda sadalan səbəblərdən İrana da ciddi iqtisadi, siyasi, humanitar problemlər, hətta daxili siyasi təlatüm, qısası, böyük imtahan vəd edir. İşğalçının yanında olmaq indi faktiki surətdə böyük müharibənin yanında olmaq deməkdir.

**Odur ki, onun önlənməsi artıq həm də regional oyunçulardan biri kimi İranın qayğısı olmalıdır. Tehranın işğalçı ölkəyə təsir imkanı isə Moskvadan heç də az deyil. Qalır, nəhayət, onları işə salmaq...**

**❑ Siyasət şöbəsi**



# Türkiyə ordusu 18 PKK terrorçunu məhv etdi

**Türkiyə silahlı qüvvələri Qars, Hakkari, Şırnak və Ağrı vilayətlərində keçirdiyi əməlyyatlarda 18 terrorçunu zərərsizləşdirib. Musavat.com-un Türkiyə mediasına istinadən verdiyi xəbərə görə türk ordusu Qarsın Kağızman rayonunda 5 terroçunun (1 ədəd M-16, 3 ədəd Kalaşnikov avtomatı və 1 ədəd Biksi pulemyot ilə birlikdə), Şırnakın Beytüşşebab rayonunda 7 terrorçunun, Hakkarinin Çukurca rayonunda 4, Ağrının Doğubeyazit rayonunda isə 4 PKK terrorçusunun zərərsizləşdirildiyini bildirib.**

# Vitse-prezident təyinatları nə vaxt olacaq?

**Azərbaycan Konstitusiyasına edilən əlavə və dəyişiklər mərhələsi artıq geridə qaldı. Sentyabrın 26-də keçirilən referendumdan sonra əsas gündəmdə olan məsələ birinci vitse-prezident və vitse-prezidentlərin kimlərin olacağıdır.**

*Referendum hüquqi qüvvəyə minəndən sonra bu postlara da ölkə başçısı tərəfindən təyinatlar olacaq. İndidən təyinat ciddi maraq doğurur. Amma hələ də kimlərin bu vəzifələrə təyinat alacaqları müəmmalıdır. Çünki heç bir ismin adı hallanmır. Yalnız ara-sıra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun adı hallanır. Sürpriz isimlərin olacağı istisna olunmur.*

**İqtidaryönlü deputat Fəzail Ağamalı** birinci vitse-prezident və vitse-prezidentlər barədə konkret isimlərin adını çəkə bilməyəcəyini qeyd etdi: “Bu barədə bir müddət əvvəl fikirlərimi demişəm. Mətbuatın ünvanlandığı suallara gözləntilər baxımından fikirlərimi ifadə etmişəm. İndi o sualı konkretləşdirdiyiniz üçün konkret cavab verə bilməyəcəm. Mənim üçün əsas olan yaradılacaq institutların mənə və Azərbaycan vətəndaşlarına verəcəyi töhfələrdir. Bir daha deyirəm ki, vitse-prezidentlik institutu Azərbaycanda idarəçilik sisteminin təkminləşdirilməsinə xidmət edən çox ciddi addımdır. Bu ölkə prezidentinin birbaşa təşəbbüsü ilə konstitusiya aktına vermiş olan dəyişiklikdir. Əminəm ki, bu dəyişiklik Azərbaycan dövlətçiliyinin inkişafında xüsusi bir mərhələni təşkil edəcək. Kimlərin vitse-prezidentlik postunu tutmaq üçün ölkə başçısının etimadını qazanacağını, hansı şəxslərin bu vəzifələrə təyin ediləcəyini görəcəyik. Düşünürəm ki, ölkə prezidentinin komandasında bu postları tutmaq üçün kifayət qədər şəxslər var. Bu məsələlər cənab prezidentin səlahiyyətindədir. Tələsməsək, yaxın gələcəkdə biz həmin şəxslərin adını biləcəyik”.



**Fəzail Ağamalı:** “Həmin şəxslərin adını da, soyadlarını da görəcəyik”



**Bəxtiyar Sadıqov:** “Cənab prezident onları tanıyır”

**“Azərbaycan” qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov** yeni yaradılacaq institutların islahatlar dövrü üçün zəruri olduğunu bildirdi: “Nəzərə alaq ki, ölkə başçısı çox gərgin fəaliyyət göstərir. Həm siyasi, həm iqtisadi, həm də beynəlxalq aləmdəki forumlarda iştirak edir. Eyni zamanda, regionlara səfər edir. Dövlət başçısı üçün bunlar həddindən artıq ağır yükdür. Xoşbəxtlikdən prezidentimiz cavandır, enerjilidir, bunun üçün də vəzifəsinin öhdəsindən çox uğurla gəlir. Amma elə tədbirlər, dövlətlərarası müqavilələr var ki, kiməsə bunu həvalə etmək olar. Düşünürəm ki, bu məsələlər vitse-prezidentlərə həvalə olunacaq. Artıq islahatlar başlayıb. Bu islahatlara nəzarət etmək, ölkə başçısını bununla bağlı məlumatlandırmaq çox güman ki, vitse-prezidentlərin işi olacaq. Göründüyü kimi, bu postların sahiblərini çox məsul işlər, tapşırıqlar gözləyir. Hesab edirəm ki, bu şəxslər kifayət qədər savadlı, təcrübəli, prezidentin islahatlarını dərindən anlayan şəxslər olacaqlar. Belə kadrlar Azərbaycanda var. İnanıram ki, cənab prezident onları tanıyır. Layiqli kadrlara bu vəzifələr həvalə olunacaq. Onlar da şərəflə ölkə başçısının tapşırıqlarını yerinə yetirəcəklər”.

❑ **Cavanşir ABBASLI**

# Müxalifət mübarizəni dayandırdımı...

## **Pənah Hüseyn:** “Ən yaxın dövrdə müxalifətin ciddi bir şəkildə fəallaşması, çəkisinin, reytinqinin kəskin şəkildə artması gözlənilir”



**Müxalifət referendum öncəsi bir həftənin içərisində üç mitinq keçirdi. Sentyabrın 11-17 tarixlərində Milli Şura, ayın 18-də isə Müsavat Partiyası konstitusiyaya ediləcək əlavə və dəyişikliklərə öz etirazlarını bildirdilər. Hər kəs bu proseslərin davamlı olacağını və demokratik düşərgənin həftə sonları mitinqlər keçirəcəyini, hətta ayın 26-dan sonra da bu prosesin davamlı olacağını düşünürdü.**

Hakimiyyət isə ciddi bir xarici və daxili problemlər yaşanmadan referendumu asanlıqla keçirdi. Artıq referendumdan bir həftə keçib. Müxalifət düşərgəsindən verilən bəyanatların əksi müşahidə olunmaqdadır. Heç bir mitinq söhbəti yoxdur, hər kəs çəkilib öz guşəsinə. Sanki müxalifət düşərgəsi mübarizəni dayandırıb. Referendumdan sonra müxalifətin necə fəaliyyət göstərəcəyi indidən suallar doğurur. Aksiyaların olub-olmayacağı isə müəmmalıdır.

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** isə bildirdi ki, müxalifət düşərgəsində bədbinliyin hökm sürməsi, “artıq hər şey bitdi” rəyinin yaranması, mübarizənin dayandığı barədə fikirlərə heç yerdə rast gəlməyib. Hətta kimlərsə bu cür fikirlər irəli sürübsə əsası yoxdur. P.Hüseynin fikrincə, referendum müxalifətin yox, hakimiyyətin çox ciddi problemlərlə üz-üzə qaldığını ortaya çıxarmış oldu: “Ölkədə böhranın geriyə dönməz xarakter aldığı açıq görünür. Ölkədə islahat adına həyata keçirilən addımlarla hətta bu hakimiyyətin özünün 1990-cı illərin ortalarında apardığı islahatların iflas elədiyi etiraf olunur. Rayonlarda yenidən sovet totalitar təsərrüfat iqtisadi sistem dövrünə qayıdış baş verir. Məktəblərdə süpürgəçilərdən və müəllimlərdən pul yığırlar ki, pambıq alınacaq. ”Pripiska" başlayıb, məcburi əməyə əsaslanan təsərrüfat sisteminə qayıdış əslində hökumətin iqtisadi siyasətinin tam iflas olmasını göstərir. O baxımdan yaxın dövrdə ölkə sosial və siyasi sarsıntılar mərhələsinə daxil olub və bunun qarşısının alınması artıq mümkün görünmür. Təəssüflə qeyd eləmək lazımdır ki, hətta hakimiyyət dəyişikliyinin bunun qarşısını ala bilməyəcəyi barədə rəylər var. Bu baxımdan siyasi müxalifətin də ciddi bir şəkildə fəallaşması, çəkisinin, reytinqinin kəskin şəkildə ən yaxın dövrdə artması gözlənilir. Müxalifətin referendumdan sonra mübarizədən çəkildiyi fikirləri əsassızdır. Qarşıdakı dönəmdə mübarizə daha da genişlənəcək. Passivlik yox, fəallaşma əlamətləri görünür".

**AXP sədri qeyd etdi ki, siyasi müxalifət içərisində çox ciddi fəallıq və yüksəliş müşahidə olunacaq:** “Dövlət idarəçiliyi ilə bağlı Konstitusiyadakı dəyişikliklərin də vəziyyəti düzəldəcəyi gözlənilmir. Baş nazirin əvəzinə vitse-prezident olanda nə dəyişəcək ki? Ölkədə işsizlik aradan qalxmasa, bahalığın qarşısı alınmasa, maliyyə-bank sisteminin çöküşünün qarşısı alınmasa indiki iqtidarın sabit şəkildə möhkəm qorunub saxlanacağı da mümkün görünmür. O baxımdan da hesab edirəm ki, qarşıdakı dövrdə hakimiyyəti daha ciddi problemlər gözləyir. Siyasi müxalifət içərisində isə çox ciddi fəallıq və yüksəliş müşahidə olunacaq. Referendum məsələsi də göstərdi ki, artıq yuxarılar köhnə qayda ilə idarə edə bilmirlər. Aşağılar da bu vəziyyətin uzun müddət davam etməsi ilə barışmaq istəmirlər. Qalır kütlələrin siyasi fəallığı. Bu da olacaq. Təzyiqlərlə, həbslərlə belə proseslərin qarşısının alınmağın mümkün olmadığı tarixdən də bəllidir.

Ölkədə bahalaşma, əhalinin həyat səviyyəsinin aşağı düşməsi göz önündədir. Bu vəziyyətin qarşısının alınması da gözlənilmir. Belə bir şəraitdə qarşıdakı dövrdə mitinqlər də olacaq".

❑ **Etibar SEYİDAĞA**



# Rusiyalı politoloqdan ilginc çağırış

## “Azərbaycan ordusu Qarabağın taleyini ildırımsürətli zərbə ilə həll edə bilər”

**ABŞ əlindən gələn hər şeyi edəcək ki, Qarabağda hərbi əməliyyatların başlanmasının qarşısını alsın. Axar.az xəbər verir ki, bunu “Novosti.az” saytına müsahibəsində rusiyalı politoloq Heydər Camal söyləyib. Onun sözlərinə görə, ABŞ-ın buna imkan verməməsinə səbəb Rusiyanın zəifliyidir:**

“Rusiya bu gün Qarabağ konfliktinə müdaxilə edəcək və onu Vaşinqtonun dəstəklədiyi istiqamətdə apar-maq gücündə deyil. Vaşinqton yalnız Bakının bu müharibədə məğlubiyyətini dəstəkləyə bilər. Bunun sayəsində Bakı kompromisə getməli və öz suverenliyi ilə tarixi haqlarını qurban verməlidir. ABŞ-ın aydın antiazərbaycan xarakteri daşıyan maraqları Azərbaycan rəhbərliyi və xalqın siyasi iradəsi üçün imperativ olmamalıdır. Rusiyanın Azərbaycan-Ermənistan qarşıdurmasına müdaxilə potensialı zəiflədiyi zaman bu müharibəni başlamaq lazımdır. Azərbaycanın bundan yararlanıb-yararlanmayacağı artıq başqa məsələdir. Azərbaycanın iqtisadi vəziyyəti, digər neft ixrac edən ölkələr kimi, problemli situasiyaya daxil olur. Bu, Azərbaycan hakimiyyətində həddən artıq ehtiyatlılıq yarada bilər. Belə yanaşma səhv olardı. Son toqquşma göstərdi ki, Azərbaycan ordusu Qarabağın taleyini ildırımsürətli zərbə ilə həll edə bilər. Ermənistan isə məğlubiyyətdən yalnız üçüncü qüvvələrin prosesə müdaxiləsi ilə xilas ola bilər”.

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016

# Roma Papasının işğalla bağlı susması ciddi etiraz doğurub

## Politoloq: "Roma Papası Azərbaycan və Ermənistan arasında bərabərlik işarəsi qoyub"

**Roma Papası Fransiskin oktyabrın 2-də Azərbaycana səfər etməsi ictimaiyyət arasında ciddi müzakirə mövzusuna çevrildi. Papanın ünvanına tənqidi fikirlər daha çox müzakirələrdə yer alır. Fransiskin qınaq obyektinə tuş gəlməsinə səbəb ölkəmizdə Azərbaycanın ərazi bütövlüyü barədə danışmaması, torpaqlarımızı işğal edən təcavüzkar ölkənin ünvanına bir kəlmə də olsun tənqidi fikir səsləndirməməsi oldu.**

Roma Papası əvvəldən gözlənildiyi kimi, şablon ifadələrə və çağırışlara daha çox yer ayırdı. Amma bu ilin iyununda Ermənistana səfər edən Fransisk qondarma "erməni soyqırımı" abidəsini nəinki ziyarət etmişdi, hətta ermənilərə rəğbətini gizlətməkdən belə çəkinməmişdi. Papanın qəzəb doğuran siyasəti təkcə bununla bitmədi. Azərbaycana səfərindən bir gün öncə Gürcüstanda olan Fransisk açıq şəkildə qonşu ölkənin ərazi bütövlüyünü dilə gətirmişdi, amma ölkəmizdə təcavüzə məruz qalan Dağlıq Qarabağ torpaqlarımız barədə susdu.



**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, Roma Papası Ermənistana, Gürcüstana gəlib, Azərbaycana səfər etməyə bilməzdi: "İyunun 24-də Fransisk Ermənistana səfər edəndən sonra artıq məlum olmuşdu ki, oktyabrın əvvəllərində Gürcüstan və Azərbaycana gələcək. Buna uyğun olaraq ölkəmizə gəldi və açıqlamalarını verdi. Düşünürəm ki, əvvəlcədən hazırlanmış açıqlamalar idi. Ermənistana səfərindən sonra Vatikandan belə açıqlama verilmişdi ki, Roma Papası Azərbaycana "hamımız qardaşıq" şüarı ilə gələcək. Bunu tənqid etmişdim. Çünki Papa düşmən ölkədə Azərbaycan cəmiyyətinin və siyasi elitasının narazılığına səbəb olan fikirlər səsləndirmişdi. Demişdi ki, Azərbaycana gedərkən orada Ermənistanda gördüyüm həqiqətlər barədə danışacağam və deyəcəyəm ki, kiçik torpaq parçasına görə sülhü bərqərar etməməkdə möhtəşəm heç nə yoxdur. Bu o demək idi ki, torpaqlar işğal olunub, Azərbaycan bunun uğrunda mübarizə aparmasın. Bu fikirlər bizim mənəviyyatımızı alçaltmaq mənasına gəlirdi. "Hamımız qardaşıq" şüarının anlamı o idi ki, torpaqlarınız işğal olunsa da, ermənilərlə də qardaş olun. Roma Papası ermənilərə verdiyi vədi yerinə yetirmədi. Çünki o, Bakıdakı çıxışların heç birində "kiçik torpaq parçasına görə sülhü bərqərar etməməkdə möhtəşəm heç nə yoxdur" ifadəsini işlətmədi. Əskinə, Roma Papası Bakıdakı çıxışlarında iman, sülh və ədalətdən danışdı. Sadəcə, əvvəlcədən hazırlanmış şablon ifadələri dilə gətirdi. Prezident İlham Əliyev çıxışında faktiki olaraq, Papanın və gələn qonaqların diqqətini işğal olunmuş Azərbaycan torpaqlarına yönəltdi. Sonra çıxış edən Papa ümumi danışdı, nə Dağlıq Qarabağdan söz açdı, nə də ölkəmizin ərazi bütövlüyündən danışdı. Bu da o demək idi ki, Roma Papası Azərbaycan və Ermənistan arasında bərabərlik işarəsi qoyub. Bu da narazılıq doğurmaya bilməzdi. Əslində Papanın kimin tərəfində olduğu məlumdur. Bu baxımdan Azərbaycanın haqlı mübarizəsinə dəstək verəcəyi gözlənilmirdi".

**Politoloq Papanın səfərinin əhəmiyyətli olan hissəsinə də toxundu:** "Azərbaycan prezidenti dövlət siyasəti multikulturalizm, dini və irqi dözümlülüyə yönəlib. Azərbaycanda bunların hamısı var və inkişaf edir. Bu bizim üstünlüyümüzdür ki, Roma Papası da bunu Bakıda vurğuladı. Fransiskin Azərbaycana səfərini çoxsaylı xarici kanallar verdi, milyardlarla insan gördü. Bu da bizim imicimizin xeyrinədir. Yəni Roma Papasının səfərini iki baxışdan izah etmək olar. Multikulturalizm siyasətinə dəstək verdi, amma torpaqlarımızın ərazi bütövlüyünə toxunmadı. Bu da onu göstərdi ki, Qərb dövlətləri kimi Vatikan da işğalçı və işğala məruz qalan arasında bərabərlik işarəsi qoyur. Açığı bu səfərlərdə Papanın Ermənistana daha çox dəstək verdiyini gördüm. Əgər Ermənistanda "Azərbaycanda deyəcəm ki, torpaq uğrunda vuruşmağa dəyməz" fikrini səsləndirmisənsə, o zaman Azərbaycanda da balansı qorumaq üçün bu tipli açıqlama verməliydin. Bu da balansın qorunması olardı. Yaxud Ermənistanda qondarma abidəni ziyarət etdi və "soyqırım olub" ifadəsini işlətdi. Amma ölkəmizə gələndə Şəhidlər Xiyabanını ziyarət edərkən bir kəlmə də olsun ki, şəhidlərimiz barədə fikir səsləndirmədi. Doğrusu, heç bu tipli açıqlamaları Papanın dilindən gözləmirdim. Amma bununla belə Azərbaycan tərəfindən rəsmi şəkildə reaksiya verilməsi doğru olmazdı. Rəsmi Bakı Vatikanla münasibətlərə əhəmiyyət verir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra bu Vatikan başçısının Azərbaycana ikinci səferidir. Birinci səfər 2002-ci ildə reallaşmışdı. Vatikan başçıları adətən əhalisinin əksəriyyəti müsəlman olan ölkələrə səfərlər etmirlər. Azərbaycan istisnadır. Azərbaycanda katoliklərin sayı bir neçə yüz nəfərdir. Buna baxmayaraq, Roma Papasının müsəlman Azərbaycana səfəri Azərbaycanın dini və etnik tolerantlıq nümunəsi olduğunu göstərir. Təsadüfi deyil ki, Heydər Əliyev Fondu Vatikanın bəzi muzeylərinin təmirinə maliyyə ayırır. Bu isə Roma Papası tərəfindən yüksək qiymətləndirilir. Azərbaycandan başqa hansısa digər müsəlman ölkəsinin Vatikanın muzeylərinin təmirinə maliyyə yardımı ayırması nümunəsi yoxdur.

Bu dəstəkdə rəsmi Bakının siyasi məqsədi də var. Bu yardımla rəsmi Bakı həm Azərbaycanın dini tolerant ölkə olduğunu nümayiş etdirir, həm də dünyada böyük nüfuza malik olan Vatikanın ərazi bütövlüyü prinsipinə diqqət ayırmasına çalışır. Birinci məsələdə müsbət nəticə var, ikincidə yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Özünü "talış" adlandıran separatçıların erməni olduğu açıqlandı

## KXCP Ali Məclisinin sədrindən etiraz və ilginc açıqlamalar

**Moskvada keçirilən postsovet respublikalarındakı separatçıların ikinci qurultayında qondarma "Dağlıq Qarabağ Respublikası" separatçıları və özünü talış adlandıran bir neçə separatçı da iştirak edib. Onlar Azərbaycan əleyhinə bəyanatlarla çıxış ediblər.**

Moskvada anti-Azərbaycan mövqeyində fəaliyyət göstərən talış separatçılarının liderləri-Rusiya talış diasporasının prezidenti İsmayıl Şabanov, "Tolişpres" informasiya agentliyinin redaktoru Kahin Mirəlizoda (Əbilov), Talış dirçəlişi uğrunda hərəkatın lideri Fəxrəddin Aboszadə də bu qurultayda iştirak edib.

Bu separatçılar çıxışları zamanı Azərbaycan dövləti əleyhinə ciddi ittihamlar səsləndiriblər. Separatçıları adından Fəxrəddin Abozadə çıxış edərək guya Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu bir neçə günə Azərbaycanda 30 min talışı qətlə yetirdiyini bəyan edib.

**Separatçıların bu bəyanatları Azərbaycan daxilində etirazla qarşılanıb.** Artıq bir neçə gündür bir sıra deputat, siyasətçilər etirazlarını bildirməkdə və hakimiyyətə sözügedən separatçılar barədə tədbir görmək çağırışları etməkdədirlər.

**Dünən KXCP Ali Məclisinin sədri, əslən Azərbaycanın cənub bölgəsindən olan Bəybala Əbil** də bu hadisə barədə fikirlərini "Yeni Müsavat"a bildirib və hakimiyyətə çağırış edib. B.Əbil qeyd etdi ki, Azərbaycan dövlətinə qarşı olan erməni separatçıları ilə özünü talış adlandıran bir neçə şəxsin fəaliyyətinə, birgə tədbir keçirməsinə Rusiyada xüsusi şərait yaradılması Rusiyanın məkrli planlarından xəbər verir: "Görünür ki, Rusiyada kimlərsə Azərbaycanda daha bir separatçılıq ocağının alovlanmasını istəyirlər. Lakin onların bu istəyi gözlərində qalacaq. Talış xalqı o cür separatçıları heç vaxt qəbul etməyib və etmir. Məhz talış xalqı heç vaxt imkan verməyəcək ki, Azərbaycan dövlətinə qarşı olan qüvvələrin məkrli planları baş tutsun. Keçən əsrin 90-cı illərində işğalçı rus ordusu torpaqlarımızın əhəmiyyətli hissəsini işğal edərək ermənilərə təhvil verib. Artıq 200 ildən çoxdur ki, Rusiyanın vətənimizə qarşı işğalçı siyasəti kəskinliklə davam edir. Belə bir vəziyyətdə Azərbaycanın hər hansı vətəndaşı işğalçıların paytaxtında Azərbaycana qarşı yönəlmiş bir tədbirdə düşmənlərimizlə birlikdə oturub şanlı tariximizə, dövlətimizə və dövlətçiliyimizə böhtan kampaniyasında iştirak edirsə, milli ayrı-seçkilik yaratdılmasına cəhd edirsə, özünü həmin qanlı-qadalı illərdə Bakı və digər rayonlarda on minlərlə azərbaycanlını qətl edən erməni terrorçularının yanında görürsə, əlbəttə, Azərbaycan qanunları ilə ən kəskin şəkildə mühakimə olunmalıdır".


Bəybala Əbil

**KXCP rəsmisi bəyan etdi ki, belə adamlar təsadüfi adamlar ola bilməz, bu adamlar xüsusi hazırlanmış adamlardır. Bunların talış qardaşlarımıza aidiyyatı yoxdur:** "Talış xalqı belə separatçıları qəbul etməyib və o cür adamların niyyətlərinin həyata keçməsinə heç vaxt imkan verməz. Ermənilər 1918-ci ildə təkcə Azərbaycan türklərini deyil, talışları, ləzgiləri və digər millətlərdən olan Azərbaycan vətəndaşlarını da qətl ediblər. İndi özünü talış adlandıran bir neçə separatçı gedib erməni separatçılarla birlikdə tədbir keçirirsə və Azərbaycanın erməni terrorundan xilasında müstəsna rolu olmuş Qafqaz İslam Ordusuna, Nuru Paşaya böhtan atırsa, həm də talış xalqına xəyanət etmiş olurlar. Məlumdur ki, müstəqilliyimiz və torpaqlarımızın işğalçılardan təmizlənməsi uğrunda tarix boyu Azərbaycanda türklərlə bərabər talışlar, ləzgilər və digər millətlər birlikdə vuruşmuş və bu gün də bir yerdədirlər. O da məlumdur ki, erməni terrorçular imkan düşdükcə adlarını dəyişdirərək başqa millətlərin adı ilə danışır cinayət və terrorlar törədirlər. Məncə, həmin üç şəxs özlərini talış adlandıran həmin terrorçu ermənilərdəndir. Dövlətimiz, hüquq-mühafizə orqanları beləlrinə qarşı qəti tədbir görməlidir".

❑ **E.SEYİDAĞA**





# "Xocalı qatili" Ermənistan ordusunun başından getdi

## Serj Sərkisyan "Qarabağ klanı"nın əsas fiqurlarından birini ermənistanlı kadrla əvəzlədi, separatçı rejimin "müdafiə naziri"ni isə Baş Qərargah rəisi təyin etdi; Nalbəndyan yenidən XİN rəhbəri təyin olundu; yeni təyinatlar ekspertlərin şərhində...

**Ermənistan hökumətində yeni nazir təyinatları olub. Erməni mətbuatının yaydığına görə, Ermənistan prezidenti Serj Sərkisyanın sərəncamı ilə müdafiə naziri Seyran Ohanyan vəzifəsindən kənarlaşdırılıb. Qarabağda tökülən günahsız qanların əsas baiskarlaırndan və Xocalı soyqırımının iştirakçılarından olan Ohanyanı bu vəzifədə Ermənistan Prezident Administrasiyasının rəhbəri Vigen Sərkisyan əvəz edib.**

Maraqlısı budur ki, V.Sərkisyanın adı yeni hökumətlə bağlı hallandırılsa da, onun Ermənistan xarici işlər naziri Edvard Nalbəndyanı əvəzləyəcəyi deyilirdi. Hətta bundan əvvəl erməni mətbuatı prezident Sərkisyanın yeni kadr siyasəti aparacağı anonsunu verərkən V.Sərkisyanın adını əminliklə "yeni xarici işlər naziri" kimi qeyd edirdi. 1999-2008-ci illərdə Ermənistanın Fransadakı səfiri kimi çalışmış E.Nalbəndyanın isə yenidən Parisə "sürgün" ediləcəyi iddia olunurdu. Lakin gözlənilmədən S.Sərkisyan özünün familiyadaşını ordunun başına gətirdi. Ermənistan prezidenti artıq hamının "yol üstə olan nazir" kimi baxdığı Edvard Nalbəndyanı isə öz yerində saxladı. Belə ki, S.Sərkisyan 3 oktyabrda E.Nalbəndyanın yenidən xarici işlər naziri təyin olunması haqda fərman imzalayıb.

Beləliklə, Ovik Abramyanın baş nazir vəzifəsindən istefasından sonra Ermənistanda hökumətin yenidən formalaşdırılmasına qoyulan vaxtın tamamında iki əsas fiqurla bağlı da qərar verilib. Qeyd edək ki, Karapetyan sentyabrın 13-də baş nazir təyin olunub və Konstitusiyaya əsasən ona hökuməti formalaşdırması üçün verilən vaxt oktyabrın 3-də başa çatdı.

Yeri gəlmişkən, S.Sərkisyan 2011-ci ilin sentyabrında Prezident Administrisiyanın rəhbəri postunu tutan Karen Karapetyanı vəzifəsindən azad etmişdi, hətta onun öz vəzifəsindən qovulduğu xəbəri də var idi. 3 il bu postda çalışan Karapetyanın yerinə isə o zaman administrasiya rəhbərinin müavini işləyən Viqen Sərkisyan gətirilmişdi. Vaxtilə vəzifəsindən qovulmuş hazırkı baş nazirin yeni müdafiə naziri ilə münasibətlərini necə quracağı maraq doğurur.

Yeni baş nazir Karen Karapetyan kimi, müdafiə naziri Viqen Sərkisyan da Ermənistan doğumludur. O, 1975-ci il mayın 10-da anadan olub. 1996-cı ildə Sankt-Peterburqda Şimal-Qərb Akademiyasını, 1997-ci ildə isə Yerevan Dövlət Universitetini bitirib. 1999-cu ildə beynəlxalq münasibətlər üzrə magistr dərəcəsi alıb. (Modern.az ) Sərkisyan 2000-ci ildə ABŞ-ın Taft Universitetinin tərkibindəki Fletçer diplomatiya və hüquq məktəbində oxuyub. O, hüquq və diplomatiya üzrə magistr dərəcəsinə malikdir. Yeni nazir 1995-1998-ci illərdə Ermənistan parlamentinin spikerinin köməkçisi, 2000-2003-cü illərdə isə Ermənistan Müdafiə Nazirliyinin əsas binasında referant kimi həqiqi hərbi xidmət keçib. 2003-cü ildə Sarkisyan Ermənistan prezidenti Robert Koçaryanın köməkçisi, 2009-2011-ci illərdə isə Prezident Aparatının rəhbər müavini olub. 2011-ci il oktyabrın 17-dən bu günə qədər isə aparat rəhbəri funksiyalarını icra edib. O, MDB ölkələri humanitar şurasının sədri funksiyalarını da icra edir. Evlidir, 3 qız atasıdır.

1975-ci il təvəllüdlü Sərksiyan İrəvan Dövlət Universitetində, həmçinin Fletçer Hüquq və Diplomatiya Məktəbində, Tafts və Harvard universitetlərində təhsil alıb. Beləliklə, yeni hökumətdə Ermənistan əsillilər "Qarabağ klanı"nın daha bir "məğlubedilməz" üzvünü kənarda saxlamağı bacardılar. Əslində bu, Ermənistan klanının ciddi qələbəsi sayıla bilər. S.Ohanyan S.Sərkisyanın özü üçün də arzuolunmaz, həm də təhlükəli fiqur idi. Hətta aprel döyüşlərindəki məğlubiyyətin ardınca onların münasibəti kəskin şəkildə pisləşmişdi. Vəziyyət o qədər kritikləşmişdi ki, S.Sərkisyanın Qarabağdakı muzdlu döyüşçüləri geri çağırmasına baxmayaraq, Ohanyan onları himayə etmişdi və əmri yerinə yetirməmişdi. Lakin müdafiə nazirinin Moskvaya bağlı olması S.Sərkisyanı çıxılmaz durumda qoyduğu üçün aprel uğursuzluqlarına görə bir sıra şəxsləri cəzalandırsa da, Ohanyana toxunmağa cəsarət etməmişdi. Bununla belə, S.Sərkisyanın Moskvada Putinlə təkbətək görüşündən sonra vəziyyət Ohanyanın zərərinə dəyişməyə başladı. Görünür, erməni prezident Putinə sədaqətinin Ohanyandan daha artıq olduğuna Rusiya liderini inandıra bilib. Lakin "Xocalı qatili"nin birdəfəlik kənara atılmayacağı barədə də məlumatlar var. Hətta onun oktyabrın ortalarında keçiriləcək Kol-




lektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi postuna təyin edilə biləcəyi xəbərləri də dolaşır.

Əslində Sərkisyan növbəti təyinatı ilə "balansı" qorumağa üstünlük verib. Belə ki, digər sərəncamla Qarabağ ermənisi Movses Akopyan Baş Qərargah rəisi təyin olunub *(Kordinat.az)* Bildirilir ki, indiyədək Baş Qərargah rəisinin müavini və qondarma "DQR-in müdafiə naziri" postlarını icra edən Movses Akopyan 1965-ci ildə Dağlıq Qarabağın Çartar kəndində anadan olub. Prezident Sərkisyan digər sərəncamla keçmiş Baş Qərargah rəisi Yuri Xaçaturovu Ermənstan Milli Təhlükəsizlik Komitəsinin katibi təyin edib. Paralel olaraq müdafiə naziri postuna təyin olunan Viqen Sərkisyanın yerinə - Prezident Aparatının rəhbəri vəzifəsinə Armen Qevoqyan gətirilib.

***

XİN başçısı E.Nalbəndyanın öz postunda qalmasına gəldikdə, çox güman ki, bununla Sərkisyan ənənəvi siyasətində korrektələr etmək niyyətində olmadığı üçün yeni nazirə də ehtiyac duymayıb. Bu, həm də onu deməyə əsas verir ki, Sərkisyanın Qarabağ münaqişənin tənzimlənməsi ilə bağlı baxışları da ciddi şəkildə dəyişməyəcək. Erməni prezident perspektivsiz danışıqları elə köhnə nazirlə davam etdirməyi, beləliklə, prezidentliyi dövründə Qarabağda "status-kvo"nu qoruyub-saxlamağı üstün tutub.

**Erməni politoloq Sergey Minasya**nın fikrincə, Nalbəndyanın yenidən xarici işlər naziri təyin olunması onun sovet diplomatiya məktəbinin yetirməsi olmasından irəli gəlir. "Doğrudur, sovet diplomatiya məktəbinin öz nöqsanları var, ancaq Nalbəndyan danışıqlarda azərbaycanlı və türk həmkarları üçün çətin rəqibdir" - o deyib (Virtualaz.org).

Onu da qeyd edək ki, Sərkisyan müdafiə naziri ilə bağlı qərarını aprel müharibəsinin altıncı ayının tamamında verdi. Erməni prezident şəxsi heyət və mövqe itkisini Ohanyanla kompensasiya etmək istədi, bununla şübhəsiz ki, ermənilərin etirazını da səngitməyə çalışdı. Ancaq şübhə yoxdur ki, danışıqların dalana dirənməsi şəraitində, üstəlik, Ermənistanın hərbi ritorikaya üstünlük verməsi halında Azərbaycan yenidən aprel döyüşlərini təkrarlamağa məcbur olacaq. Belə olan halda Harvard təhsili görmüş bir şəxsin müdafiə naziri təyin olunması Azərbaycanda da suallar doğurub.

***

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, Ermənistan prezidenti Serj Sərkisyan həyata keçirdiyi son yerdəyişmələrlə hakimiyyətini qorumağa çalışır: "Ancaq məsələn, Nalbəndyanın yenidən xarici işlər naziri vəzifəsini qoruması nəyi dəyişir ki? Onsuz da Ermənistan cəmiyyətinin Nalbəndyandan yorğunluğu var. Sərkisyan iqtisadiyyatı yeni baş nazir Karen Karapetyana "həvalə" edib ki, islahatlar aparsın, halbuki bunun üçün resurs yoxdur, özü isə orduda qayda-qanun yaratmaq istəyir. Məsələn, onun Movses Akopyanı Baş Qərargah rəisi təyin etməsi orduda keyfiyyət dəyişikliklərinə hesablanıb. Serj Sərkisyanın hərbçi Seyran Ohanyanın əvəzinə 1975 doğumlu, İrəvan Dövlət Universitetində, eləcə də Fletçer Hüquq və Diplomatiya Məktəbində, Tafts və Harvard universitetlərində təhsil alan Viqen Sərkiysanı müdafiə naziri təyin etməsi də orduda islahatlar aparması istəyi ilə bağlıdır. Aprel döyüşləri göstərdi ki, Ermənistan ordusunun əsgər və zabit heyəti tam komplekləşməyib, ərzaq və geyim təminatı aşağı səviyyədədir, ordudakı pullar yeyilib, generallar bu pullarla İrəvanda özlərinə villalar tikiblər və s. Yəni Serj Sərkisyan ordudakı bu vəziyyəti dəyişmək üçün müdafiə sistemini keçmiş administrasiya rəhbərinə etibar edib. Yəqin Sərkisyan düşünür ki, Qərb təhsili alan Viqen Sərkiysanı ordunu mükəmməl menecment əsasında quracaq, maliyyə oğurlanmayacaq. Qərb ölkələrində də adətən müdafiə naziri mülki şəxs təyin olunur. Ancaq Qərbdə sistem saat kimi işləyir, Ermənistan isə müharibə vəziyyətindədir. Sərkisyanın Ermənistan ordusunda oğurluğa son qoyması istəyi anlaşılandır, bəs əgər müharibə başlayarsa akademik təhsil alan və Seyran Ohanyandan fərqli olaraq savaş təcrübəsi olmayan Viqen Sərkisyan vəzifəsinin öhdəsindən gələ biləcəkmi? Bunu yoxlamaq isə artıq Azərbaycan ordusunun vəzifəsidir".

**Həbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** "Yeni Müsavat"a bildirdi ki, yeni müdafiə naziri S.Sərkisyana yaxın adamdır: "Onun gəlişi Qarabağla bağlı heç nəyi dəyişən deyil. Onsuz da Moskva nə desə, o olacaq. Ohanyanın uzaqlaşdırılmasına gəldikdə, Ü.Cəfərova görə, məna ondan ibarətdir ki, erməni ordusundakı çoxsaylı əsgər itkiləri ilə əlaqədar etirazlar səngidilsin. Son vaxtlar "Əsgər anaları" Cəmiyyəti itkilərə görə Sərkisyanla yanaşı, Ohanyanı da günahlandırırdı. Sərksiyan da Ohanyanı qurban verməklə etirazları səngidəcəyini zənn edir. Yaxın zamanda böyük ehtimal ki, ona normal vəzifə veriləcək. Çünki Ohanyan Sərkisyanın cinayətlərinin şahididir və onu digərləri kimi kənarda saxlamaq təhlükəlidir. Üstəlik, onların hər ikisinin əli Qarabağda dinc azərbaycanlıların qanına batıb".

**Ü.Cəfərov Qarabağ separatçısının baş qərargah rəisi təyin olunmasını da əsassız saymır:** "Ona görə bu vəzifəyə gətirildi ki, bununla Ermənistanın güc strukturlarında söz sahibinin Qarabağdan gəlmiş şəxs olduğunu göstərmək istədi. Çünki Sərkisyanın hakimiyyətini qorumaq üçün vuran əl lazımdır".

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016



## Cəmiyyətin vitrinində al-əlvan rənglər

**Samir SARI**

**Srağagün səhər ertə idi, mobil telefonu ilə internetdə eşələnən oğlum qəfildən soruşdu: "Ata, Samiraldonu tanıyırsan?"**

Belə baxanda adi sual idi, cavabı qısaca "hə" ola bilərdi və elə olmalıydı. Amma nəyə görəsə mən özümü Samiraldo adlı stilisti tanıdığımı danmaq zorunda hiss etdim. Hərçənd bunu da bacarmayacağımı görüb yəhudi klassikasına əl atdım, suala sualla cavab verdim: "Niyə soruşursan? Sən onu hardan tanıyırsan?"

Yaquarım əlindəki telefonu göstərib dedi ki, burda onun haqqında bir xəbər var, bir də bir video.

Dedim, boş ver, get dərslərini oxu, kimyadan müəllim evə nə verib, tarixi oxudunmu, riyaziyyat nə yerdədir, filan-bəsməkan.

Dünən isə saytlardan oxudum ki, yazıq Samiraldonun başına iş gəlib, Kamil Zeynallı adlı idmançı onu bir prezentasiyada təhqir edib, üstünə meyvə-zad tullayıb, ünvanına söyüş söyüb, daha sonra isə müsahibə verərək deyib ki, Samiraldo insanların əxlaqını pozur.

Heç kəs yanlış anlamasın, mən Samiraldo kimi insanların varlığına dözümlə yanaşılmasının tərəfdarıyam. Qoy onlar bu ikiqütblü, ikirəngli, ikistandartlı cəmiyyətdə üçüncü qütbə çevrilməsinlər, amma üçüncü rəng kimi mövcud olsunlar, təvazökar bir şəkildə həyatlarını yaşasınlar.

Bu baxımdan Samiraldonu prezentasiyada görərək əsəbiləşən idmançının hərəkətlərinin (söyüş-təhqir və meyvə yağdırmaq) motivini anlayır, ancaq təqdir etmirəm. Gərək o, Samiraldonu görməzliyə vuraydı, sadəcə, onunla eyni ortamda olmaq istəmirdisə, özü çıxıb gedəydi.

Bununla belə, yadıma oğlumun həmin günün səhəri verdiyi sual və mənim ani olaraq pərt vəziyyətə düşərək cavab verə bilməməyim düşür, hesab edirəm ki, gənc idmançı da müəyyən qədər haqlıdır.

O mənada ki, ölkəmizdə yaşayan bu tip adamlar təvazökar deyillər. Telekanallar bütün günü onları göstərirlər. Saytlar, qəzetlər hər gün onlardan yazırlar. Hər gün yeni-yeni videoları yayılır. Hara baxırsan, onlardır. Öz davranışları, həyat tərzləri ilə gözə girirlər.

Deyilə bilər ki, axı bunun sizə, yəni hetereseksual çoxluğa nə aidiyyatı var, siz bildiyiniz kimi yaşayın, onlar da öz bildikləri kimi yaşasınlar.

Elə deyil, qardaşlar və bacılar!

Bu xüsusda hetereseksual çoxluqda bir qorxu əmələ gəlib ki, zaman keçdikcə özləri azlığa çevriləcəklər, hazırda azlıqda olanlar isə çoxluq təşkil edəcəklər. Necə ki artıq ekranda-efirdə, prezentasiyalarda çoxalmaqdadırlar.

İndi bu sözləri oxuyub mənə də Erkin Qədirli kimi "homofob" adı qoya bilərlər, amma elə bir fobiyam-zadım yoxdur. Dediyim odur ki, onlar azlıq olduqlarından özlərinə üstünlük düzəltməsinlər, çoxluğa nümunə olmağa, onları əzməyə, pisikdirməyə çalışmasınlar.

Bu dəb olub, özləri cinsi azlıqlara aid olmayan bir çoxları da var ki, sırf insan haqları naminə, ya da nəyə görəsə o legiondan olan adamları müdafiə edir, cəmiyyəti spektral rənglərə dözümlü olmağa çağırırlar. Amma baxaq görək, "mavi"ləri və "çəhrayı"ları müdafiə edənlər evdə azyaşlı övladlarının o cür adamlar haqqında suallarına necə cavab verirlər? Yaxud da istəyərlərmi ki, öz övladları da onlar kimi olsun?

Əlbəttə, heç bir valideyn bunu istəməz, hətta onların elə olmaması üçün var gücü ilə mübarizə aparar. Ancaq di gəl ki, bu şəxslərin cəmiyyətin vitrinində durmasına göz yumurlar. Vitrin də elə şeydir ki, insanlar orda gördüklərinə həsədlə baxır, onları əldə etmək, gördükləri obrazda olmaq istəyirlər.

Orası da var ki, Avropada bu cür adamlarla dinc, yanaşı yaşamağın yolunu tapıblar, onları prezentasiyalarda görəndə söymürlər, üstlərinə mövsümi meyvəcat tolazlamırlar, hətta zarafat-zad da edirlər.

Avropalıların geylərlə etdiyi zarafatlar da bizimkilərdən deyil. Bizdə onları çox aşağılayır, əzir, rişxənd, lağlağı hədəfi edirlər. Avropalılar isə nə onlarla qurşaqdanaşağı zarafat edirlər, nə öz hetereseksuallıqları ilə qürur duyurlar, nə də təsir altına düşüb dönüyə, sapığa çevrilmirlər.

**Yazını yekunlaşdırarkən, qorxa-qorxa yazıram ki, əgər buynuzsuz qoçun qisasının buynuzluda qalmadığı haqqındakı atalar sözü gerçəkdən də özündə hikmət daşıyırsa, bu gedişlə gün gələcək, Samiraldo və dostları idmançı Kamil Zeynallını və dostlarını prezentasiyada az görüb, döyüb qovacaqlar.**

# Yeni gömrük rüsumları əhalidə çaşqınlıq yaradıb-bolluq, yoxsa bahalaşma?

## İqtisadçı ekspertlərin hökumətin qərarına baxışı fərqlidir

**Nazirlər Kabineti (NK) tərəfindən Azərbaycana idxal edilən məhsulların gömrük idxal rüsumları müəyyənləşdirilib. Dəyişikliyə əsasən, Azərbaycana idxal edilən 1 kq ev toyuğu əti üçün 1 dollar, 1000 ədəd toyuq yumurtası üçün 100 dollar, 1 kq soğan üçün 0,2 dollar, 1 kq xiyar üçün 0,2 dollar, 1 kq qoz-fındıq üçün 1,5 dollar, 1 kq üzüm üçün 0,4 dollar, 1 kq alma (sidr istehsalı üçün, qalama (qabsız), sentyabrın 16-dan dekabrın 15-dək), armud (perrinin və ya armud sidrinin istehsalı üçün, qalama (qabsız), avqustun 1-dən dekabrın 31-dək), heyva üçün 0,3 dollar, 1 kq xurma üçün 0,3 dollar gömrük idxal rüsumu müəyyənləşdirilib. O cümlədən meyvə şirələrinin, spirtli içkilərin 1 litri üçün 0,7 dollardan az olmamaqla gömrük idxal rüsumu alınacaq.**



Gömrük rüsumlarının artmasından sonra əhali sözügedən məhsulların bahalaşacağından narahatdır. Ekspertlər də hesab edir ki, daxili bazarı qorumaq adı altında atılmış bu addım əslində bahalaşmaya səbəb olacaq. Ancaq gömrük rüsumun artırılmasının daxili istehsalın artmasına şərait yaratdığını düşünənlər də var.

"Yeni Müsavat"a açıqlamasında bu məsələyə münasibət bildirən **Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov** qərarın mühüm əhəmiyyətinin olduğunu vurğuladı: "Bunda əsas məqsədlərdən biri monopoliyanı sıxışdırmaqdır. Çünki xaricdən gətirilən məhsullar monopoliyadadır. Hər insan gedib o məhsulları xaricdən alıb gətirə bilmir. İstər spirtli içkilər, istər ət məhsulları, istərsə də meyvə-tərəvəz idxalı monopoliyadadır. Bu qərar həmin monopolistlərə zərbədir. Digər tərəfdən də bu dəyişiklik sözügedən məhsulların istehsalının artmasına şərait yaradacaq. Tələbat olarsa, istehsal da artacaq".

**Bahalaşma məsələsinə gəlincə, deputat bildirdi ki, bu istisna deyil:** "Bəli, bahalaşma ola bilər və bunu heç kim inkar etmir. Ancaq bu müəyyən müddət olacaq. Bunun olmaması üçün İqtisadi İnkişaf Nazirliyinin xüsusi departamenti var, o departament işləməli və gecə-gündüz nəzarət etməlidir ki, qiymət artımı olmasın, bazarda defisit yaranmasın. Əlbəttə monopolistlər çalışacaqlar ki, bazarda defisit yaransın və qiymət artsın, yenidən köhnə qaydaya qayıdılsın, əvvəlki rüsumlar bərpa edilsin. Ancaq buna getmək olmaz. Çünki bu addımı Azərbaycan dövlət başçısı atıbsa, əsas məqsəd ölkədə sahibkarlığın, fermer təsərrüfatının inkişafı ilə əlaqədardır. Ona görə də, İqtisadi İnkişaf Nazirliyi çox ciddi addımlar atmalıdır. Çalışmaq lazımdır ki, qiymətlər obyektiv olsun".

*Bəs məhsullar siyahısında elələri var ki, ölkədə istehsal olunmur. Məsələn, xurma demək olar ki, bütünlüklə xaricdən gətirilir. Bəs, həmin məhsullara tətbiq olunan gömrük rüsumun artırılmasında səbəb nədir?*

**Vahid Əhmədov bildirdi ki, həmin məhsullar gündəlik tələbat məhsulu deyil və geniş istehlak olunmur:** "Onu alan insanlar baha da olsa alacaqlar. Əsas məhsullar ət məhsulları və meyvə-tərəvəz məhsullarıdır. Onlar ölkədə kifayət qədər istehsal olunur. Bu qərarın əhəmiyyəti çox böyükdür və biz onu düzgün şəkildə tətbiq edə bilsək bir neçə ilə çox böyük nəticələr əldə etmək mümkün olacaq və Azərbaycan həmin məhsullar üzrə öz tələbatını yüz faiz ödəyə biləcək".

**İqtisadçı-ekspert Natiq Cəfərli** isə dedi ki, ilk baxışdan bu qərarın məntiqi daxili istehsalçının qorunması, daxili istehsalın stimullaşdırılması kimi yozula bilər: "Sadəcə, bu tipli qərarlar tehsalımız var. Bunu öyrənmədən, yerli istehsalın ayaqda durmasını təmin etmədən, onlara ciddi dəstək vermədən birdən-birə ancaq gömrük tariflərinin artırılması yolu ilə yerli istehsalçıların dəstəklənməsi doğru addım deyil. Niyyət yaxşı olsa belə, yerli istehsalın kəskin şəkildə artması üçün illərlə zaman lazımdır. Belə olan halda həmin zaman kəsiyində xaricdən gətirilən malların qiymətinin artması birbaşa istehlakçılara zərbə olacaq. Azərbaycan praktikasından çıxış edərək demək olar ki, yerli istehsalçılar da xaricdən gətirilən məhsulların qiymətinin artdığını görüb öz məhsullarının da qiymətini artıracaqlar. Çünki yerli istehsalçıların qiymətləri artırmasının qarşısındakı yeganə əngəl xarici məhsullarla olan rəqabət idi. Qanunla qiymətlərin artırılmasına heç bir qadağa yoxdur. Azərbaycanda əgər formal da olsa bazar iqtisadiyyatı qanunları fəaliyyət göstərirsə, yerli istehsalçılar ilk növbədə bununla bağlı müəyyən addımlar atdıqda məhz öz məhsullarının qiymətini qaldırmağı düşünəcəklər. Bu isə birbaşa istehlakçının cibinə ziyan vuracaq".

ları vermədən öncə daxili istehsalın və tələbatın hesablanması vacib idi. Daxili istehsalın nə dərəcədə tələbatı ödəyə biləcəyinə dair konkret rəqəmlər səsləndirilməli idi. Hökumət tərəfindən belə bir hesabatın ortaya qoyulması, insanların bilgiləndirilməsi baş verməyib. Biz bu gün də bilmirik ki, gömrük rüsumu artırılan məhsullara Azərbaycanın illik tələbatı nə qədərdir və daxili tələbatı ödəmək üçün nə qədər yerli is-

**İqtisadçı bu qərarın daha çox istehsal sektorundakı monopolist şirkətlərə faydalı olacağını bildirdi:** "Azərbaycanda broyler məhsulları, meyvə şirələri və sair məhsulları istehsalı ilə bağlı fəaliyyət göstərən şirkətlərin sayının azlığını və kimlərə məxsus olduğunu nəzərə alsaq görərik ki, bu qərar bir qrup insanın mənafeyinə daha çox xidmət göstərir, nəinki istehlakçının mənafeyinə.

Məntiqlə yerli istehsalın artırılması, stimullaşdırılması üçün bu kimi addımların atılması məqbuldur. Sadəcə, bunun üçün yerli istehsalın lazımi səviyyəyə çatdırılması lazım idi. Bu qərarın bazarlar ilkin təsiri kimi biz qiymətlərin artmasını müşahidə edəcəyik. Rəsmi rəqəmləri götürsək, qoyun əti, mal əti və yumurta ilə bağlı yerli istehsal tələbatın 90 faizdən çoxunu ödəmək gücündədir. Toyuq ətində göstərici daha aşağı səviyyədədir. Meyvə-tərəvəzdə isə mövsümə bağlıdır. Mövsümlə bağlı meyvə-tərəvəz istehsalı yerli tələbatı ödəsə də, qış aylarında bunu müşahidə etmirik. Digər tərəfdən daxili tələbat yerli istehsala yönəldiyindən Azərbaycan məhsulları xarici bazarlarda yetərincə təmsil oluna bilməyəcək. Yerli istehsalçıları daxildə qiymətlərin artmasını nəzərə alıb, yol xərclərini və riskləri hesablayaraq məhsulları daxildə satmağa üstünlük verəcəklər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016

# "Bank Standard"ın qarşısında əmanətçi etirazı

## Vətəndaşlara pullarının nə zaman qaytarılacağı deyilmir; "Əmanətlərin faizini qaytarmırlarsa, bəs niyə banka kredit borcu olanların faizini hesablayırlar?

**Xəbər verdiyimiz kimi, Maliyyə Bazarlarına Nəzarət Palatası sentyabrın 30-da "Bank Standard"ın lisenziyasını ləğv edib. Palatanın Direktorlar Şurasının sədri Rüfət Aslanlı "Bank Standard"ın lisenziyasının ləğvini belə əsaslandırıb: "Öhdəliklərin idarə olunmasında çətinliklər yaranıb. 3 ay müddətinə müvəqqəti inzibatçı təyin edilmişdi. 5000 manata qədər olan əmanətlərin və sosial ödənişlərin ödənilməsi təmin edilib.**

Ancaq bankı idarə etmək bizim səlahiyyətimiz deyil. Bankın sağlamlaşdırılması məqsədilə qərar qəbul edilib. Hökumətin də səylərinə baxmayaraq bankın dayanıqlığını təmin edə bilmədik. Bankın ləğvetmə prosesi zamanı "Standard Sığorta" ilə münasibətlərinə aydınlıq gətiriləcək. Biz sığorta şirkətlərinin aidiyyəti banklarda saxladığı pulu onun kapitalı kimi nəzərə almırıq. Bankın bağlanması sığorta şirkətinin bağlanması demək deyil. Amma bu onun da fəaliyyətinə təsir edəcək".

R.Aslanlı əmanətçiləri narahat olmamağa çağırıb. Bildirib ki, qorunan əmanətlər əhaliyə tez zamanda ödəniləcək. Palata rəhbərinin sözlərinə görə, əmanətlərin qaytarılmasını Əmanətlərin Sığortalanması Fondu həyata keçirəcək.

Xatırladaq ki, bankda 520 milyon manat əmanət var. Bunlardan 460 milyon manatı qorunan əmanətdir. Bütövlükdə fiziki hesaba malik olan şəxslərin sayı 260 mindən artıqdır.

Bağlanan bankda vəziyyətin necə olduğunu öyrənmək üçün "Yeni Müsavat"ın müxbiri "Bank Standard"ın baş ofisində olub və ofisin qarşısında toplaşan əmanətçilərlə görüşüb.

Bankın lisenziyasının ləğv edilmə xəbərini eşidən əmanətçilər baş ofisə axın edir. Bankın həyətində onlarla müştəri toplaşmışdı. Onlar təlaş içərisində qoyduqları əmanətin geri qaytarılması üçün prosedur qaydalarını, əmanətlərinin nə zaman qaytarılacağını öyrənməyə çalışırdılar.

Bankda isə bütün əməliyyat sistemləri dayandırılıb. Müştərilər bank işçilərindən məlumat almağa çalışsalar da, onlara dəqiq məlumat verilməyib. İnsanları narahat edən səbəb isə onlara dəqiq zamanın deyilməməsidir. Əmanətçilərin sözlərinə görə, baş ofisdən onları sadəcə yola verirlər. Bu səbəbdən də bank əməkdaşları və əmanətçilər arasında kiçik mübahisələr də yaşanırdı.

**Bankın qarşısına toplaşan bir neçə əmanətçi ilə həmsöhbət olduq. Adının çəkilməsini istəməyən əmanətçilər depozitlərinin qaytarılması ilə bağlı onlara konkret zaman təyin olunmadığını bildirdilər:** "Bankın əməkdaşları bizə deyirlər ki, bura gəlməyin, 10-15 gün gözləyin, məhkəmə qərarı çıxsın sonra bəlli olacaq. Dediklərinə görə, bizə pulumuzu qaytaracaq bankların siyahısı internet resurslarında dərc olunacaq, sığortalanmış əmanətlərin qaytarılması daha tez həllini tapacaq. 100 min manatadək əmanətlər daha tez qaytarılacaq".

**Əmanətçilərin sözlərinə görə, bir ay öncə bankdan əmanətləri sığortalamaqla bağlı təklif gələndə nəticənin belə olacağı ağıllarına gəlməyib:** "5-6 ay öncə xəbər gəzirdi ki, bankda kimin əmanəti varsa, sığortalasın və bu zaman gəlir 12 faiz olacaq. Ancaq əvəzində əmanətlər sığortalanacaq. Ağıllı adamlar əmanətini 12 faizə endirib sığortalatdı. Bunun müsbət tərəfi odur ki, vəsaitlər qaytarılan zaman sığortalı olan əmanətlər qabağa salınacaq. Sığortalanmayanlar isə sonraya saxlanılacaq. Dəqiq zaman isə bəlli deyil. Bundan əlavə, bankda 30 min manata qədər əmanəti olanlar avtomatik olaraq sığortalanır".

**Digər bir əmanətçi isə dollarla olan əmanətlərinin manatla ödəniləcəyindən narahat olduğunu dedi:** "Bank bağlanan gün bir əmanətçi 5 min dollar əmanətini götürməyə gəlmişdi. Ona dedilər ki, bu pulu sizə manatla verək. O isə israr etdi ki, banka dollarla əmanət qoymuşam, dollarla da qaytarın. 1000 dollarını qaytardılar. Qalan hissəsini isə növbəti günlərdə qaytarmağa söz verdilər. Belə çıxır ki, dollarla olan əmanətlərin qaytarılması gecikdiriləcək. Dollarla əmanəti olanlara vəsaitləri hissə-hissə ödəniləcək".

**Adının çəkilməsini istəməyən əmanətçi depozitlər qaytarılarkən faizlərin hesablanmayacağını dedi və bunun ədalətsiz olduğunu vurğuladı:** "Bankda 17 min manat əmanətim var, bu təbii ki, qaytarılmalıdır. Ancaq bizə əmanətin faizi də verilməlidir. İllərdir pulumuzu burada boş yerə saxlamırıq ki... Ancaq bank əməkdaşları faiz adı çəkən kimi bizimlə sərt danışırlar. Deyirlər ki, camaat əmanətinin dərdindədir, siz isə fazin. Əmanətlərin faizini qaytarmırlarsa, bəs niyə banka kredit borcu olanların faizini hesablayırlar? Biz pulumuzun faizini istəyəndə isə etiraz edirlər. Əslində lisenziyası ləğv olunan banklar kreditlərə də faiz almamalıdır. Bağlanan günün səhəri bank əməkdaşı üç gün müddətində əmanətlərin faizi ilə birlikdə veriləyini dedi. İndi isə deyirlər ki, 20 günə televiziyada məlumat veriləcək. BIr sözlə hərə bir söz deyir. Bilmirik kimə inanaq?"

**Xatırladaq ki, "Bank Standard" bu il Azərbaycanda lisenziyası ləğv olunan 11-ci bank oldu.**

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**














# Bu il Aşura mərasimləri fərqli keçiriləcək

## Ekspertlər həm əhalini, həm də aidiyyəti dövlət qurumlarını diqqətli olmağa çağırır

**Azərbaycanda Məhərrəmlik əyyamı başlayıb. Görünən budur ki, bu il Məhərrəmlik ayı, xüsusilə də Aşura mərasimi ötən illərlə müqayisədə fərqli keçiriləcək. Səbəb də "Dini etiqad azadlığı haqqında" Qanuna edilən dəyişikliklərdir.**

Bundan əlavə, **Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı** bildirib ki, Məhərrəmlik ayında dini xarakterli ayinlər yalnız məscidlərdə keçirilməlidir, evlərdə toplaşmaq, küçələrə çıxmaq qanunvericiliklə yolverilməzdir. Komitə sədrinin bu fikrinə dindarlar müxtəlif aspektdən yanaşıblar. Sosial şəbəkələrdə də bu fikirlər geniş müzakirələrə səbəb olub. Kimisi bu qərarı dövlətin dinə qarışması hesab edərək qeyri-düzgün, kimisi də təhlükəsizlik aspektini əsas götürərək, doğru sayır.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **deputat Fazil Mustafa** bildirdi ki, burada əslində kimsənin inancına qarışılan məqam yoxdur: "Hər kəs dini inancına görə, öz dini rituallarını həyata keçirə bilər. Dövlət də bu barədə hər hansı bir şəkildə məhdudlaşdırma və ya qadağanedici normalar müəyyənləşdirməyib. Sadəcə olaraq, hər bir hüququn gerçəkləşdirilməsi, digər şəxslərin hüquqlarına müdaxilə zəminində olmamalıdır. Hüquqda bu prinsiplə məsələlərə yanaşılır. Ona görə də bu mərasimlərin məscidin içərisində keçirilməsində məqsəd həm də kənarlardakı insanların istirahət və digər bu kimi hüquqlarının pozulmasının qarşısını almaqdır. Burada müxtəlif bayraqların qadağan edilməsi islami baxımdan da doğrudur. Çünki islamda konkret olaraq bayraq anlayışı yoxdur. Döyüşlərdə işlədilən, yaxud islamı təmsil edən xilafətlərin, sülalələrin özlərinin bayraqları var. Bu bayraqları da hərə bir rəng olmaqla, fərqlənmək üçün götürdükləri üçün bunu islamın bayraqları kimi qiymətləndirmək doğru deyil. Qanunvercilik bütün bunları nəzərə alaraq, mərasimlərin bir qədər məhdud, qapalı çevrələrdə keçirilməsini məqsədəuyğun sayıb. Məncə, bu, normal yanaşmadır. Onu da qeyd edim ki, bütün bunlar heç bir halda inanclı insanların adət-ənənələrini yaxud da dini ayinlərini həyata keçirməyə hər hansı formada məhdudlaşdırma mənasına gəlmir".

**F.Mustafa hesab edir ki, bu hal, ölkədə radikal dini qruplaşmaların iğtişaşlar törətməsinə səbəb ola bilməz:** "Kimsə iğtişaş törədəcəksə, qanunla nəzərdə tutulan qaydada ictimai asayişi pozmağa görə məsuliyyət daşıyacaq. Bu baxımdan kimsə normaları bilirsə belə, bir addım atacağını zənn etmirəm. Ancaq belə bir addımlar olarsa, ölkənin hüquq-mühafizə orqanları bu istiqamətdə ictimai-asayişin pozulmasına, xuliqanlıq və digər maddələrə görə həmin şəxsləri cəzalandıracaqlar. Əslində Məhərrəm ayında hər hansı şəkildə savaş, başqalarına, özünə xəsarət yetirmək qadağan olunur. Ona görə də güman etmirəm ki, bu mahiyyəti anlayanlar hər hansı formada iğtişaşa əl atsınlar".

Hökumətin qərarını "Yeni Müsavat"a keçmiş **sabiq təhlükəsizlik nazirinin müavini Sülhəddin Əkbər** də şərh etdi: "Burada iki həssas məsələ var. Birincisi, bu, dini rituallar və qaydalar çərçivəsində keçirilməlidir. İkincisi də dövlətin bu məsələlərə müdaxiləsi çox ölçülü-biçili olmalıdır. Bir tərəfdən Dini Komitə mərasimlərin dini qaydalar çərçivəsində keçirilməsinə nəzarət etməlidir, digər tərəfdən isə dövlət orqanlarının bu məsələyə yersiz müdaxiləsinə yol verməməlidir. Belə olarsa, daha düzgün yanaşma olar".

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** isə bildirib ki, təhlükə istisna olunmur: "Amma ənənəyə söykənsək, deyə bilərəm ki, Azərbaycanda Məhərrəmlik ayında, eləcə də Aşura günündə hələ indiyə qədər heç bir terror hadisəsi baş verməyib. Hesab edirəm ki, o ənənə bu il də davam edəcək".

Qeyd edək ki, Məhərrəm ayının 10-u - Aşura günü oktyabrın 12-nə təsadüf edir.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016

# 101 dövlət əmlakı özəlləşdirilməyə çıxarılır




**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 101 dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı yeni hərraclar elan edilib. Bu barədə Komitənin mətbuat xidmətindən məlumat verilib.**

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı 1 noyabr tarixində keçiriləcək yeni hərrac elan edilib. Budəfəki hərraca 101 dövlət müəssisə və obyekti çıxarılıb.

Hərraca çıxarılan dövlət əmlaklarının 23-ü özəlləşdirmə prosesi çərçivəsində yaradılmış və nizamnamə kapitalının nəzarət səhm paketinin 30-45 faizini təşkil edən açıq səhmdar cəmiyyətləridir. Bunlar paytaxt Bakı şəhəri ilə yanaşı, Mingəçevir şəhəri, habelə Neftçala, Astara, Abşeron, Yevlax, Xaçmaz, Kürdəmir və digər rayonlarda yerləşən səhmdar cəmiyyətləridir. Hərraca çıxarılan səhmdar cəmiyyətləri kəndkimya, təmir-tikinti, avtonəqliyyat, quşçuluq, xidmət, sənaye, emal və digər sahələri əhatə edir. Bu müəssisələr sırasında “Astara Çay-3", "Lənkəran Broyler", “Masazır Quşçuluq”, “Tovuz Məişət”, “Yevlax Yun”, “Zabrat Tikinti Quraşdırma” və digər səhmdar cəmiyyətləri vardır.

Həmçinin hərraca 62 kiçik dövlət müəssisə və obyekti də çıxarılıb. Bu obyektlər sırasında Bakı şəhərinin müxtəlif rayonlarında, habelə Şəki, Ağsu, Hacıqabul, Salyan, Balakən, İsmayıllı və digər rayonlarda yerləşən qeyri-yaşayış sahələri, habelə ictimai iaşə və ticarət müəssisələri vardır.

Eyni zamanda, hərraca çıxarılan dövlət obyektlərinin siyahısında 16 ədəd nəqliyyat vasitəsi də yer alıb.

İstənilən şəxs hərracda iştirak edə və əmlak sahibi ola bilər. Hərracda iştirak etmək üçün iştirakçı hüququnu əldə etmək kifayətdir. Bunun üçün komitənin elektron xidmətlər portalı vasitəsi ilə elektron qaydada, habelə Hərracların Təşkili üzrə Auksion Mərkəzi və onun regionla bölmələrində sifariş verib, əmlakın satış qiymətinin 10%-i məbləğində beh ödəmək kifayətdir. Hərraca çıxarılan əmlaklar barədə komitənin özəlləşdirmə portalı, habelə rəsmi internet saytı vasitəsi ilə ətraflı məlumat əldə etmək mümkündür.

Qeyd edilməlidir ki, sifarişlər hərracın keçirilməsinə 3 bank günü qalanadək verilməlidir.

Hərraca çıxarılan daşınmaz dövlət əmlaklarının iqtisadi göstəriciləri barədə məlumatlar, mövcud vəziyyətini əks etdirən foto materiallar, yerləşmə mövqelərini göstərən xəritələr *(google map)* privatization.az saytında yerləşdirilir. Hərraca çıxarılan hər bir səhmdar cəmiyyəti barədə ətraflı məlumatla linkdə tanış olmaq olar. Hərracda iştirak etmək istəyən vətəndaş kiçik dövlət müəssisə və obyektləri barədə ətraflı məlumatı linkdən ala bilər.

Bununla yanaşı, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı elanlar, habelə hərraclarda iştirak qaydaları barədə məlumat komitənin rəsmi mətbu orqanı olan “Mülkiyyət” qəzetində də dərc edilir.

Hərrac prosesi ilə tanış olmaq istəyən hər bir vətəndaş “açıq hərrac”larda iştirak edə bilər. Əmlak Məsələləri Dövlət Komitəsi yerli və xarici investorları, sahibkarları, iş adamlarını və mülkiyyət sahibi olmaq istəyən hər bir kəsi özəlləşmədə fəal iştirak etməyə dəvət edir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**




## Bakıda müəllim şagirdi döydü, valideyn polisə şikayət etdi

**Bakının Suraxanı rayonunda yerləşən 104 saylı orta məktəbdə şagird döyülüb. Rayon Polis İdarəsindən (RPİ) “Report”a daxil olan məlumata görə, bununla bağlı uşağın valideyni RPİ-yə şikayət edib.**

Belə ki, Tanriverdi Nəcəfov adlı valideyn Suraxanı RPİ-yə müraciət edərək bildirib ki, oğlu 2006-cı il təvəllüdlü F.N. məktəbdə İradə adlı müəllim tərəfindən döyülüb.

Faktla bağlı araşdırma aparılır.



## Dələduzluqda təqsirləndirilən hakim 2 ildir axtarışda imiş

**Dələduzluqda təqsirləndirilən sabiq hakim ev dustaqlığına buraxılmayıb. Musavat.com xəbər verir ki, oktyabrın 3-də Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən sabiq hakim Fəxrəddin Rzayevin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin vəkilinin qaldırdığı vəsatətlərə münasibət bildirilib.

Sabiq hakimin vəkilinin cinayət işinə xitam verilməsi ilə bağlı vəsatəti təmin edilməyib.

İkinci vəsatət isə F.Rzayevin ev dustaqlığına buraxılması ilə bağlı olub. Hakim Fikrət Qəribov qeyd edib ki, təqsirləndirilən şəxs iki il axtarışda olduğu üçün onun ev dustaqlığına buraxılması mümkün deyil.

İş məhkəmə baxışına verilib. Növbəti məhkəmə prosesi oktyabrın 6-da davam etdiriləcək.

Qeyd edək ki, Fəxrəddin Rzayev bir neçə nəfərin etimadını qazanaraq dələduzluq əməli törədib.

Onların şikayəti əsasında F.Rzayev saxlanılıb. Ona Cinayət Məcəlləsinin 178.3.2( külli miqdarda dələduzluq) maddədi ilə ittiham verilib.

Xatırladaq ki, Fəxrəddin Rzayev 2000-ci ilə qədər Yasamal rayon Məhkəməsində hakim olub. Sonra öz ərizəsi ilə işdən çıxıb. F.Rzayev bir müddət də Bakı Hərbi Məhkəməsində icra şöbəsinə rəhbərlik edib.

❑ **İlkin MURADOV**

## Qəzaya düşənlərə kömək etmək istədi, özünü də maşın vurub öldürdü

**Siyəzəndə 2 nəfərin ölümü ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. ARB Şimal xəbər verir ki, hadisə Qəza Bakı-Quba-Rusiya federasiyası sərhədi avtomobil yolunun 118-ci kilometrliyində, rayonunun Gilgilçay kəndi ərazisindən keçən hissəsində qeydə alınıb. Qəzada 99 AC 039 dövlət nömrə nişanlı “Azsamand” markalı maşınla 10 UT 453 dövlət nömrə nişanlı “VAZ 21 06" markalı avtomobil toqquşub.**

Toqquşmadan sonra “Azsamand” yol kənarındakı dəmir maneəyə çırpılıb. Avtomobilin sürücüsü 33 yaşlı Davud Rəsulov yerindəcə dünyasını dəyişib. Qəzadan sonra hadisə yerində daha bir faciəvi hal yaşanıb. Belə ki, qəzada xəsarət alanlara kömək etmək istəyən Güldəstə İsmayılova yoldan keçərkən naməlum avtomobil tərəfindən vurulub. Qadın hadisə yerində dünyasını dəyişib. Qəzanı törədən sürücü hadisə yerindən qaçıb.

YENİ MÜSAVAT
N 218 (6539) 4 oktyabr 2016

**Son günlər kərə yağlarının, o cümlədən digər ərzaq məhsullarının keyfiyyətsiz olması ilə bağlı bir sıra məlumatlar gündəmdədir. Ən pisi isə budur ki, Azərbaycanda ərzaqların təhlükəsizliyinə nəzarət edən bir qurum yoxdur. Daha doğrusu var, amma o, ərzaq məhsullarına qanunla nəzarət edə bilməz. Yəni ötən ilin noyabrın qəbul edilən qanuna görə, sahibkarlıqla bağlı aparılan yoxlamalar 2 il müddətinədək dayandırılıb.**

# Ərzaq təhlükəsizliyinə hansı orqan cavabdehdir?

## Fazil Talıblı: “Bu sahəyə nəzarət edən qurumlar nəzarəti müvəqqəti dayandırıb” Eyyub Hüseynov: “Ölkədə hələ də qida təhlükəsizliyi ilə bağlı qanun yoxdur”

Təbii ki, bu qanundan sui-istifadə edən bir sıra işbazlar keyfiyyətsiz məhsullar idxal edirlər. **Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı** yoxlamaların müvəqqəti dayandırılması səbəbindən komitə yanında Texniki tənzimləmələr və standartlaşdırma üzrə dövlət nəzarəti xidmətinin müəssisələrdə bu kimi problemləri araşdırmadığınmı deyir: “Qanun buna imkan vermir. Ancaq ərzaq məhsulları ilə bağlı zəhərlənmələr, xoşa gəlməyən faktlar aşkar olarsa və bununla bağlı qaynar xəttimizə şikayət daxil olarsa, məsələyə aidiyyəti üzrə baxıb müvafiq qurumlar qarşısında məsələ qaldırıb tədbir görmək olar. Ərzaq məhsullarının təhlükəsizliyinə nəzarət edən qurumlar var. Sadəcə olaraq onlar müvəqqəti olaraq yeni qanuna görə nəzarəti dayandırıb. Əslində bu qanun sahibkarların öz məhsullarının keyfiyyətini yüksəltmələri və fəaliyyətlərini genişləndirmək üçün əlavə şans yaradan bir qanundur. Çox təəssüf ki, biz bunun bəzi hallarda əksini görürük. Bir sıra sahibkarlar bundan sui-istifadə edirlər. Biz sui-istifadə hallarına qarşıyıq və bunu kəskin şəkildə qınayırıq”.

**F.Talıblı alıcılardan ərzaq məhsulları ilə bağlı neqativ hal görərlərsə, qurumun qaynar xəttinə müraciət etmələrini xahiş etdi:** “Bizə edilən müraciətlərə əsasən həmin ərzaqlardan nümunə götürüb laboratoriyalara müraciət edib, müəssisəyə getmədən onu araşdıra bilirik. Əgər laborator nəticələr şikayətçinin dedikləri ilə üst-üstə düşərsə, o müəssisənin keyfiyyətsiz məhsul istehsal etməsi barədə hüquq mühafizə orqanlarına və digər aidiyyəti orqanlara məlumat verə bilərik. Həmçinin, əgər idxal olunan kərə yağıdırsa, Dövlət Gömrük Komitəsinə məlumat verməli olar ki, monitorinq nəticəsində laborator nəticələr mənfi olub. Ona görə də məhsulun ölkəmizə gəlməsinin qarşısı alınsın. Amma kərə yağları ilə bağlı son dövrlərdə alıcılar tərəfindən şikayətlər daxil olmur. Bundan başqa, kolbasalarla, hansısa çörəyin tərkibi ilə bağlı, həmçinin restoranda qidalanarkən yeməyin içindən dəmir boltun çıxması məsələsi ilə bağlı müraciətlər var. Amma bir daha deyim ki, təəssüf ki, biz bu müraciətləri qəbul edib müəssisəyə şifahi xəbərdarlıq etməklə işimizi yekunlaşdırırıq”.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** isə ölkədə kifayət qədər təhlükəli qida olduğunu dedi: “23 dekabr 2015-ci ildə ölkə prezidentinin sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında qeyri infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün strategiya hazırlanıb. Guya Səhiyyə Nazirliyi həmin strategiyanı yerinə yetirir. Orada qeyd olunur ki, insanların erkən ölümlərinin səbəbi qeyri-infeksion xəstəliklərdir. Qeyri-infeksion xəstəliklərin də mənbələrindən biri kimi tütündən istifadə etmək göstərilir. Hansı ki, təhlükəli tütünə Səhiyyə Nazirliyi sertifikat verib. Qida qeyri-infeksion xəstəlik olaraq insanların həyatında böyük rol oynayır və ömrü qısaldır. Təəssüflər olsun ki, ölkənin qida sektoru kifayət qədər çirklənib. Xüsusən də son 6 ayda sahibkarlar onlar üçün yaradılmış toxunulmazlıq şəraitindən tam su-istifadə edirlər və ölkədə kifayət qədər təhlükəli qida var. Əgər səhər Bakının bazarlarına getsək görərik ki, minlərlə turşu ağzı hələ açılmayıb, amma artıq sağlamlıq kağızı var. Cəmdəklərin üzərində baytarlıq möhürü var. Deməkolar ki, səhər tezdən bütün malların üzərində sertifikatları görə bilərik. Guya həkimlər səhərə qədər yatmır və malların keyfiyyətini yoxlayır. Bunların hamısı anormal haldır və alıcının aldadılmasıdır. Ən pisi isə odur ki, ölkədə qidanın təhlükəsizliyi ilə bağlı qanun yoxdur. Beynəlxalq təşkilatlar Azad İstehlakçılar Birliyinin iştirakı ilə hələ 4 il əvvəl belə bir qanunu hazırlayıb hökumətə verib. Mən həmişə düşünürəm ki, qərar qəbul edən insanların özləri, ailələri, uşaqları zəhərlənəndə onda başa düşəcəklər ki, Azad İstehlakçılar Birliyi ”Yeni Müsavat” qəzeti vasitəsilə nə demək istəyirmiş. Sertifikat verən orqanlarla əhalinin sağlamlıq keşiyində duran orqan bir əldə birləşib. Yəni hər bir mala Səhiyyə Nazirliyi sertifikat verir. İnsanlar zəhərlənəndə də Səhiyyə Nazirliyinə müraciət edir. Nə qədər ki, sertifikat verən orqan müstəqil deyil, nə qədər ki, normal istehlakçı hərəkatı yoxdur, nə qədər ki, istehlakçı hüquqlarını qoruyan orqan və sairə İqtisadiyyat Nazirliyinin nəzdindədir, nə qədər ki, məmur bizneslə məşğul olur, nə qədər ki, Azad İstehlakçılar Birliyi pis işləyir, zəhərlənmələr də olacaq, problemlər də. Təəssüflər olsun ki, mövcud qanunvericiliyə görə, Səhiyyə Nazirliyi gedib haradasa təhlükəli mal aşkar eləsə, onu yoxlamaq üçün gərək İqtisadiyyat Nazirliyindən nümayəndə çağırsın. Belə çıxır ki, hökumətin bir qurumu oğrudur, o birini çağırır ki, mənim yanımda dur, mən oğurlamayım. Bu anormal haldır. Dünya ölkələrinin heç birində bu yoxdur. Məsələn, Yeni Zelandiyada istehlakçı hüquqlarını qoruyan təşkilatın icazəsi olmadan bir dənə mal marketə daxil ola bilməz. Ona görə də orada sertifikatlaşdırma işi ictimai təşkilata həvalə olunub və hər şey kütləvi informasiya vasitələri ilə sıx əlaqədə işlənir".



❑ **Günel MANAFLI**

# Universitetlərdə atışmalar artıb - hədəf nədir?

## Tələbələri terrora cəlb etmək, yoxsa...



**ABŞ-ın Şimali Karolina ştatında universitetdə atışma barədə xəbər verilib. “NBC” kanalının məlumatına görə, atışma Qrinsboro şəhərində tələbələrin təşkil etdiyi şənlikdə olub. Hadisə yerinə gələn polis yaralı qız və oğlan tələbəni xəstəxanaya çatdırıb. Ancaq onların həyatını xilas etmək mümkün olmayıb.**

Bu, yaxın və uzaq dünya tarixində ali təhsil müəssisələrində baş verən ilk silahlı atışma deyil. Daha öncə də dəfələrlə dünyanın bir çox yerindəki ali təhsil müəssisələrində silahlı atışmalar, yaralanan və ölən insanlar olub. Onlardan bəzilərini yada salaq.

**2015-ci ildə belə atışmalardan biri Ankara Universitetinin Tibb fakültəsində baş verib.** Hadisə nəticəsində üç nəfər ölüb, bir nəfər isə yaralanıb. İnsident tibb fakültəsinin əməkdaşları arasında yaşanıb.

**2015-ci ilin fevralında Cənubi Karolina Universitetinin kampusunda baş vermiş atışma nəticəsində 2 nəfər ölüb.** Yerli rəsmi qurumların məlumatına əsasən, kampusda qətl və intihar baş verib. Hadisənin təfərrüatları, həmçinin ölənlərin şəxsiyyəti açıqlanmayıb.

**Ötən ilin 24 oktyabrda isə ABŞ-ın Tennessee Dövlət Universitetində silahlı toqquşma nəticəsində bir nəfər həlak olub.** Silahlı insident zamanı daha üç nəfər isə ağır yaralanıb. Bu barədə ABŞ polisi məlumat verib. Nashville şəhərinin polisi tvit edərək bildirib ki, zorakı hadisə zər oyunu ilə bağlı yaranmış mübahisədən sonra baş verib. Mübahisə nəticəsində 19 yaşlı tələbə həyatını itirib və hadisənin baş verdiyi yerdən keçən üç tələbə isə yaralanıb. Hazırda Universitet polis tərəfindən ciddi nəzarətə götürülüb və faktla bağlı araşdırmalar aparılır.

**Bundan bir həftə əvvəl kollec yaxınlığındakı parti zamanı silahlı atışma nəticəsində də üç nəfər yaralanıb.** Son hadisə zamanı şübhəli şəxs hadisə yerini ayaqla tərk edib. Universitet mətbuat xidməti bildirib ki, mübahisədə iştirak edən şəxslər universitet tələbələri olmayıb və güman ki, qumar oynayıblar.

**Amerikada son zamanlar universitet və kolleclərdə atışma hadisələri adi hal alıb.** Bir müddət əvvəl Amerikanın Florida ştatında, Betun-Kukman universitetinin yataqxanasında atışma baş verib. Belə ki, axşam saat 7 radələrində universitetin yataqxanasında silahdan açılan atəş nəticəsində bir neçə tələbə yaralanıb. Polis hadisədə şübhəli bilinən iki nəfəri tutub. Məlumata görə, onlardan biri həmin universitetin tələbəsidir. Yaralılardan isə ikisinin universitet tələbəsi, birinin isə kənar şəxs olduğu deyilir. Həkimlər yaralıların həyatı üçün heç bir təhlükənin olmadığını bildiriblər.

**Xatırladaq ki, bir müddət əvvəl də buna bənzər hadisə olub.** 46 yaşlı bir amerikalı universitetin yataqxanasının yanında silahdan açdığı atəş nəticəsində 3 müsəlman gənci qətlə yetirib. Qətlə yetirilənlər 23 yaşlı Dea Barakat, onun əri 21 yaşlı Yusor Məhəmməd və onun bacısı 19 yaşlı Abu-Salxa olub. Qonşular ölənləri müsəlman icmasının aktiv üzvləri kimi təsvir edib. Onlar xeyriyyəçiliklə məşğul olurdular və inkişafdan qalan ölkə sakinlərinə kömək edirdilər. Qatil özü cinayətin törədilməsindən dərhal sonra Pittsboro ətraflarında yerləşən qraflığın şerifinin ofisinə gəlib. Onun ateist olduğu bildirilib.

**Bu ilin 25 sentyabrında isə naməlum şəxs ABŞ-ın İllinoysk şəhərində Urban-Şampeyn universitetində ətrafdakı şəxslərə atəş açıb.** Hadisə şahidləri insident nəticəsində 9 nəfərin yaralandığını bildiriblər. Universitet rəhbərliyi tələbələrə təhlükə barədə xəbərdarlıq edib. Hadisə yerinə polis və təcili yardım maşınları gəlib.

*Bəs ali təhsil müəssisələrində bu cür silahlı atışmaların sayının artması nəyin göstəricisidir? Doğrudanmı binalara daxil olan tələbələr təhlükəsizlik xidməti əməkdaşları tərəfindən yoxlanılmır? Universitet binaları hər bir silahlının əl-qolunu sallayaraq içəri keçəcəyi, terror törədəcəyi bir məkana çevrilib?*

Türkiyədəki analitik təhlillərə görə, ümumiyyətlə, bir çox hallarda silahlı şəxslər universitetə kənar şəxslər olur. Onlar zamanında, yəni 70-ci illərdə sol hərəkatının nümayəndələri olur, daha çox gənclər arasında fikir ayrılıqlarını silah gücü ilə həll etməyə çalışırdılar. Müasir zamanda isə bu cür silahlı atışmaların əsas yaradıcıları PKK tərəfdarlarıdır. Məqsəd daha çox insanın yığışdığı məkanda xof yaratmaq, göz qorxutmaqdan ibarətdir. Bundan başqa, qarışıqlıq yaratmaq üçün universitet kimi məkanlar terrorçular üçün ən arzuedilləndir.

Daha bir məqam isə ondan ibarətdir ki, PKK terror təşkilatı hər universitetdə öz qruplaşmasını yaradır. Xüsusən də silahlı çatışmaların davam etdiyi bölgələrdə PKK bu universitetlərə öz qruplaşmalarını yollayır, orda özəklərini yaradır, əlavə tələbələri də cəlb edir. Son nəticədə ali məktəblər də terror yuvasına çevrilir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 218 (6539) 4 oktyabr 2016

# Timsahı çəkələklə qovdu

Avstraliyadakı Kakadu Milli Parkında qəribə hadisə olub. Göldə üzən timsahları görən qadın onu "şəp-şəp"lə (çəkələk) qovub. Buna səbəb isə timsahların qadının yanındakı itə yaxınlaşma cəhdi olub. Baş vermiş hadisənin videosu artıq YouTube kanalında yayımlanıb. "Reuters" agentliyinin xəbərinə görə, videonun müəllifi naturalist Lindon Anlezark olub. Bunu edən qadın yaşadıqlarının nə qədər təhlükəli bir hadisə olmasının fərqində olmayıb. Videonu izləyənlər isə bildirir ki, qadının şüursuzcasına belə qəhrəmanlıq etməsi o qədər də gözəl hərəkət deyil. Çünki bu günə qədər göldə üzən timsahların insanlara tərəf qəfil hücumu geniş yayılmış hadisədir. Ən son belə qanlı hadisə 1987-ci ildə baş verib.





## Qadın deyingənliyi kişinin ömrünü 5-6 il qısaldır

Danimarka alimlərinin tədqiqatı göstərib ki, deyingən qadınlar kişilərin orta ömrünü 5-6 il qısaldır. Araşdırmanın nəticələrinə görə, ailədə mütəmadi mübahisələr cütlüklərdə müxtəlif ciddi xəstəliklərin yaranma riskini 60 faiz artırdığını göstərib. Söhbət xüsusilə ürək-damar sistemində çatışmazlıqlardan, stenokardiya və insultdan gedir.

Alimlər araşdırma zamanı 40 cütlüyü 5 il ərzində izləyib. Nəticədə qısqanc qadınların daim münasibətləri çətinləşdirdiyi, kişilərin susmasının isə ürək xəstəliklərini şiddətləndirdiyi üzə çıxıb.

## Keçmiş ərinə hücum etdi - ad gününə çağırmadığına görə...

Avstraliyalı təqaüdçü Pamela Terner çoxdan boşandığı ərinə hücum edib və onu yaralamağa cəhd edib. Buna səbəb 71 yaşlı qarının keçmiş ərinin onu ad günü ziyafətinə dəvət etməməsi olub. Məhkəmə qarı barədə 3 aylıq həbs qərarı çıxarıb (lenta.ru).

Qadın ərinə hücum edərkən tavadan, mətbəx bıçağından və qab-qaşıqdan istifadə edib. Nəticədə keçmiş ər bir neçə yerindən bıçaqla zədə alıb. Məlum olub ki, bu cütlük bir neçə il öncə, məhz qadının qısqanclığı ucbatından ayrılıb. İndi də 74 yaşlı keçmiş ərinin ad günü keçirib ora qadınları dəvət etməsi Pamelanı qıcıqlandırdığı üçün belə axmaq addım atıb. Amma əri onu bağışlamaq fikrində deyil və 3 ay Pamelasız həyat keçirəcəyi üçün çox xoşbəxtdir.

## Dağ siçanı öldü, məhbuslar türmədə bunt etdilər

Britaniyadakı türmələrdən birində məhbuslar üsyan ediblər. Buna məhbuslardan birinə məxsus olan dağ siçanının ölməsi səbəb olub. "The Telegraph"ın xəbərinə görə, bu üsyanda dörd nəfər məhkum fəal olub. Onlar mebelləri, lampaları qırıblar, daha sonra isə mərtəbələr arasındakı pilləkənlərdə oturublar. Məhkumlar kameralarda aparılan yoxlama əməliyyatlarından narazılıqlarını bildiriblər. Bundan başqa, 23 yaşlı Kayl Bleki saxladıqları heyvanın ölümündən də qəmgin olduqlarını deyib. Xatırladaq ki, Britaniyada yaxşı davranışa görə məhkumlara heyvan saxlamaq icazə verilir. Amma bununla belə, mübahisəyə səbəb olan heyvanın hansı şəraitdə, harda saxlanması sual işarəsi olaraq qalır. Buntun baş verməsi nəticəsində cəzaçəkmə müəssisəsinə dəyən ziyanın məbləği 15.5 min dollar olub. 4 saat davam edən buntu sakitləşdirmək çətin olsa da, onun törədiciləri özlərini günahkar sayıblar. Onlar müxtəlif kameralara yerləşdiriliblər, gələcəkdə isə fərqli türmələrə köçürüləcəklər.






## Rusiyada dövlət məmurlarına WhatsApp qadağası

Rus hökuməti dövlət məmurlarının WhatsApp, Viber və Teleqram kimi çatlardan istifadəsini, bu-radan rəsmi yazışmalar aparmasını və ya sənəd göndərməsini yasaqlayıb. "İzvestiya" qəzetinin xəbərinə görə, Rusiyanın milli təhlükəsizlik təşkilatı FBR bu tələbi yerinə yetirməyən dövlət məmurları üçün cəza mexanizmi tətbiq etməyə qərar verib. Buna görə də FBR tərəfindən təsdiqlənməyən yazışmalardan istifadə edən dövlət məmurları intizam cəzası alacaq və hətta işdən çıxarılacaq.

Şəxsi istifadə üçün bu istiqamətdə hər hansı qadağa olacağı gözlənilmir. Ancaq dövlət məmurları arasında aparılan yazışmalar və sənəd transferlərinin üçüncü şəxs tərəfindən ələ keçirilməməsi üçün özəl bir müdafiə sistemi qüvvəyə mindirilib. Xarici ölkələrin əlində olan populyar söhbət vasitələrinin qadağan olunması daha öncə də Rusiyada gündəmə gəlmişdi.




QOÇ - Ətrafınızdakı gərginlikdən usanmayın. Çünki bu gün sizi narahat edən əksər sahələrdə - qarşılıqlı münasibətlərdə, maliyyə məsələlərində, həmçinin fəaliyyətdə müsbət nəticələr əldə edəcəksiniz.

BUĞA - Risk etməyə lüzum yoxdur. Çünki hazırkı durumunuz ifrat əsəbiliyinizdən xəbər verir. Hirsli başla isə hansısa uğura çatmaq absurddur. Probleminizin həllini məmurlardan deyil, Tanrıdan istəyin.

ƏKİZLƏR - Kifayət qədər düşərli zaman kəsiyindən keçəcəksiniz. Bu prosesi daha ideal səviyyəyə yüksəltmək üçün ətrafınıza sadiq tərəfdaşlar toplamalısınız. Günün "ən varlı" zodiak işarəsi də siz olacaqsınız.

XƏRÇƏNG - Planetlərin bürcünüzdəki neqativ düzülüşü saat 12-yə qədər bütün ciddi işləri təxirə salmağı tövsiyə edir. Əks təqdirdə çoxsaylı uğursuzluqlarla rastlaşacaqsınız. Ətrafınızdakılar tərəfindən sevilməyə çalışın.

ŞİR - Passivlik müstəvisində qərar tutan ailə-sevgi münasibətlərinə yenidən baxın. Mümkün qədər bütün neqativlikləri minimuma endirin. Əsəbi vaxtlarınızda dostlarınız arasında, təbiət qoynunda sakitləşməyə çalışın.

QIZ - İxtiyarınıza olduqca məsuliyyətli bir vaxt düşüb. Gün boyu çoxlu sayda yeniliklərin şahidi olacaq, maraqlı təkliflər alacaqsınız. Proseslərə neytral şəkildə yaxınlaşmaqla uğurlarınızı yaxınlaşdıra bilərsiniz.

TƏRƏZİ - Maddi sıxıntılarınızın azalacağını bildirən ulduzlar səmimi və təbii olmağı, reallığa düzgün qiymət verməyi məsləhət görür. Ümumiyyətlə isə, fərdi fəaliyyətinizdə böyük dönüş baş qaldırmalıdır.

ƏQRƏB - Qarşınızda duran vəzifələrin öhdəsindən gəlmək, sizə güvənən insanların etimadını qazanmaq başlıca vəzifənizə çevrilməlidir. İş yerini dəyişmək fikrinə düşməyin. Axşam səhhətinizə fikir verin.

OXATAN - Qarşınıza qoyduğunuz məqsədlərə çatmaq üçün bütün gücünüzü işə salmalısınız. Günün ikinci yarısı fəaliyyətlə bağlı geniş imkanlarınız açılacaq. Bu isə maddi durumunuza müsbət təkan verəcək.

OĞLAQ - Xırda maliyyə problemlərinə görə narahat olmayın. Çünki bu istiqamətdə uğurlarınız yaxınlaşmaqdadır. Hazırda əsas məqsədi işgüzar sövdələşmələrə yönəldin ki, perspektivlərinizə yol açılsın.

SUTÖKƏN - Saat 13-ə qədərki vaxtı səbrlə başa vursanız, qalan saatlarda hansısa xoşagəlməzlik olmayacaq. Çünki ulduzlar şəxsi işlərinizdə böyük dönüş yaratmaq istəyir. Sizə sadəcə, əzmkarlığı artırmaq lazımdır.

BALIQLAR - Ulduzlar günboyu maraqlı insanlarla görüşəcəyinizi bəyan edir. Bu, işgüzar əməkdaşlıq da ola bilər, dostluq-yoldaşlıq da. Tərəfdaşlarınıza qərəzli şəkildə yanaşmayın, yalan vədlər verməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu da fosforlu qoyun...



Şimali Amerikada yaşayan bir qrup alim Latın Amerikasında genetikası dəyişdirilmiş ilk qoyun növünü yaratmaqla tarixə düşüblər. 2012-ci ilin noyabr ayında dünyaya gələn qoyun digər qoyunlardan fərqlənir.

Yeni doğulmuş qoyun fosforlu görünüşü ilə diqqət çəkib. Bu qoyun ultra bənövşəyi işıqların altında işıldayır. Mütəxəssislər qoyunun genlərinə balıqların genini əlavə etdikləri üçün onun parıldadığını deyirlər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750